**Ulusəs Atalı**

# Sabahlı İnamım

**Atakənd-37**
**“Elm və təhsil”-2015**

**Tərtibçisi, redaktoru və Ön Sözün yazarı: Soylu Atalı**

**Bilgisayarda işlədi: Göylü və Ulunur Atalılar**

**Düzəldicisi: Nurtəkin Atalı**

**Ulusəs Atalı. Sabahlı İnamım.** (Ocaq yönündən axtarışlar, izahlar). Atakənd-37. Bakı, “Elm və təhsil” nəşriyyatı, 2015, 88 səh.

**Asif Atanın (İnam Atanın) Mütləqə İnam Ocağının Evladı Ulusəs Atalının yazdığı bu ilk bitiyi (kitabı) bir sıra olaylara, ulusal dəyərlərə, eləcə də Ocaq Evladlarına yönəlik sərgilədiyi münasibətləri özündə daşıyır. Ulusəs Atalının sunduğu bu fikirlər Ocaq ölçüsündən qaynaqlanır və onun ruhani görmə ərdəmliyini təsdiq edir. İstənilən ictimai soyun nümayəndəsi üçün Ocağın az vaxt içində insanda aşkarladığı bu ulusal ərdəmlik örnək sayıla bilər.**

## İlkinlik istəyi ilə yaşayan ürək

"Kimin öncəsi, kimin sonrası" deyib ulular. Bu o deməkdir ki, kiminsə ömrünün öncəsi uğurlu olur, kiminsə ömrünün sonrası. Doğal olaraq düşünmək olar ki, bu fikir fiziki-cismani yaşama bağlı deyilməyib, mənəvi-ruhani yaşama özgün (aid) deyilib. Çoxluq etibarilə insanların ömrünün sonrası ömrün öncəsindən qırağa çıxır, dəyişir, fərqlənir. Dəyişməyən ömür cismani yaşamdan başqa ölçüsü olmayanlarda ola bilər. Yəni axtarışlar əsasında ömür dəyişməli, qalxınmalı (inkişaf etməli) və yetginləşməlidir. Heç kim anadan kamil doğulmur, yaxud heç kimin ömrünün öncəsi, sonrası, dinin dediyi kimi, bəlli qəlib içinə salınmr. Hər kəs yaşamını özü qurur – əyri, ya doğru.

Bu məsələlərə aydınlıq gətirmək üçün amaldaşım Ulusəs Atalının yaşamını, seçimini örnək demək istəyirəm. Həyatın çoxsaylı tələbləri ilə 58 il yaşadıqdan sonra Ulusəs, Asif Ata ideyalarına bağlanmış, bundan sonrakı ömrünü ruhani döyüş (mübarizə) tələblərinə kökləmişdir. Bizə görə belə bir aqibətə rast gəlmək xoşbəxtlikdir. Ömrün sonrasına uğur gətirməkdir. Əslində Ulusəsin öncəki ömrünə də uğursuzdur demək olmaz. Çünki o, öncələr də bəsit yaşam sürməyib, doğru bildiyi istəklərini gerçəkləşdirmək üçün çabalar göstərib. Məsələn, Ulusəs Atalı Azərbaycan Dövlət Tibb Universitetini bitirib həkim kimi işə başladıqdan sonra işin sorumluluğuna vicdanla cavab verib. Umacaqsız və özündənkeçmə səviyyəsində çalışmalar yerinə yetirib. Daha sonralar humanitar işlərlə uğraşıb. Burada da özünü başqalarının xoşbəxtliyi üçün verməsi onun ərdəmliyinin göstəricisidir.

Umacaqsızlıq və özündənkeçmə onun fitri keyfiyyətidir. İlk dəfə Asif Ata Ocağı ilə tanış olduqdan sonra, Ulusəs, Asif Atanın "Uluyurd Hərəkatı" ideyasını gerçəkləşdirmək işinə girişdi. Keçmiş silahdaşı və dostu ilə birlikdə bu ideyanın genişlənməsi üçün hər cür olanaqlarını (imkanlarını) ortaya qoydu. O, kirayə verdiyi evindən gələn gəlirlə Hərəkatın işlərini yoluna qoyur, simgələrini (bayraq, herb, himn...) hazırlayır, çap işlərini görürdü. Bu gəliri ilə o, Asif

Atanın “Uluyurd Aqibəti – Bütöv Azərbaycan” Bitiyini (kitabını) də çap etdirib yaymağa başladı...

Ancaq bu ideyanın gerçəkləşməsi təkcə özündənkeçmə (fədakarlıq) ilə başa gəlmir, gərək Asif Atanın ideya-prinsiplərinə, ölçüsünə, döyüş (mübarizə) tələblərinə yetkin səviyyədə bələd olasan. Bunun üçün aylarla, illərlə gərgin zəhmətə qatlaşmaq gərəkdir.

Uluyurd Hərəkatının işi yubandıqdan sonra Hərəkatın Yetkini (yetkilisi) Nəakət Ulusəs Ocağa Evlad olub, Ulusəs Atalı aqibətini seçdi. O, Ocaqda da fitri umacaqsızlığı və özündənkeçməsi ilə ruhani doğmalarının sayğısına layiq yaşayır.

Atanın dönəmindən Ulusəsin bu Yola qoşulduğu çağa kimi Ocaq özünün qutsal toplantılarını fərdi evlərdə keçirirdi. Ulusəs Ocağa gəldikdən sonra evinin bir hissəsini “İnam Evi”nə çevirdi. Ocağın bütün toplantıları, Ocaqla ilgilənən çoxsaylı gənclərlə, aydınlarla görüşlər burada – “İnam Evi”ndə keçirilməyə başladı. Bu yazının yazıldığı ilsırada (tarixdə) 6 il olur ki, Ocaq Ulusəsin yaratdığı İnam Evini qullanıb ruhani yararlana bilir. Bu əməl Ocaq ilsırasında ayrıca olaydır, səhifədir.

Ulusəs Ocağa gəldikdən sonra ayrı-ayrı vaxtlarda yaradıcılıq örnəkləri də araya gətirdi. Onun yazarlıq olanaqları işə düşdü. Sonucda Azərbaycanın, bir az geniş anlamda türkün dəyərlərinə yönəlik Ocaq ölçüsü ilə araşdırıcı, dəyərləndirici yazılar ortaya qoydu. Məsələn, onun “Babək – Özgürlük peyğəmbəridir”, “Dönədönə Atatürk”, “İnam Evi – İnsanlığın ünvanıdır” və b.k. yazıları öyrənilməli, yararlanmalı baxışlardır. Bu yazılarda ulus sevgisi, yurd sevgisi, insan sevgisi içdə yaranan halı əks etdirir.

Ulusəs Atalının Ocaqiçrə ilginc izləmələri, görümləri də var. O, Ocaq Evladlarının işlərini, ömürlərini izləyir və yazılı şəkildə öz baxışlarını sərgiləyir. Təkcə sərgiləmir, həm də fərəhlənir, umud bəsləyir. Son çağlarda Ulusəs özü bir sıra gərgin həyat qayğıları yaşadı. Ancaq o bu qayğılara yenilmədi, yıxılmadı, həmin fərəh, həmin umud, Ocağa inam onu qorudu. “Sabahlı İnamım” bitiyi də yazarın fərəhini, umudunu, inamını izhar edir.

Ulusəsi tanıtmaq (təqdim eləmək) önəmli bir məsələyə də aydınlıq gətirir. Adətən insan hansısa bir ideyaya, yola gənc yaşlarından bağlanır. Çünki gənclik duyğuları arı, sağlam, işgüzar, axtarıcı olur. İnsan öz duyğularını gənclikdə başqa yönə kökləyirsə, yaşlaşanda bu duyğuların yönünü dəyişmək çox çətin olur. Yuxarıda vurğuladımız kimi, Ulusəsin duyğuları körpə qalmayıb, onun ictimai yaşamda çeşidli çalışmaları olub. Bununla belə, yaşının ahıl çağında Atanın ruhani döyüşünə (mübarizəsinə) qoşulmaqla bəlli uğurlar yetirmək, sözün doğru anlamında, örnəkdir. Bu, həm Ata məktəbinin etkisidir, həm insanın özündə daşıdığı insanlığın gücüdür. Asif Atanın dünyabaxışı da elə bu hikməti – İnsanlığın gücünü öyrədir.

Amaldaşımız Ulusəs, "Sabahlı İnamım" bitiyi ilə, Asif Atanın bu hikmətini tanıdanlardan biridir, birincilərdəndir. Qutlu olsun.

Yükümüzdən Böyük Fərəhimiz yoxdur!
Atamız Var olsun!

***Soylu Atalı***
***Mütləqə İnam Ocağının Yükümlüsü***



Uluses Atalının Ocağa qəbulu.

**Mütləqim, Müqəddəsim, ulu peyğəmbərim**
**Asif Ataya – İnam Ataya ali səcdəylə!**

## Rica

Mən ömrüm boyu həqiqət axtarışında olan şəxsəm. İnsanın, millətin ülvi, qutsal olduğunu duysam da, bu yöndə müxtəlif ölçüdə işlər görsəm də, həyatın anlamını, mütləq həqiqətin nə olduğunu anlamamışam.

Mən 2004-cü ildə, yaşımın 58-ci ilində, Asif Atanın Mütləqə İnam Ocağını tapdım. Beş il Mütləq həqiqəti, insanın ruhani varlıq olmasını, ulusun qutsallığını özündə daşıyan və həyatın mənasını anlamağa aparan Yolun yolçularının – Ocaqçıların yörəsində oldum.

Mən bu beş ili, Ocaqla tanışlığadək yaşadığım 58 illik axtarışlarımın uğurlu sonucu sayıram. Ocağın İnsana, dünyaya mənəvi yiyəlik etmək halı fərəhli yaşamın nə olduğunu mənə anlatdı.

Mən bu düşüncəyə gəldim ki, Mütləq Həqiqətə aparan Mütləqə İnam Yolu öz rəngarəngliyi ilə bəşəri mənalandıran insanların yüksək yaşamını təmin edən düzgün yoldur. Bu o deməkdir ki, Ocaq ağlasığmaz dərəcədə çətin yolun yiyəsidir. Ocaqçıların və Mütləqə İnam yolunun ağır yükünü daşıyan Ocaq Yükümlüsünün mənə sərf etdikləri əməyi, Ocaq yükünün altına girməklə, ilahi qismətim sayıram.

Müqəddəs Ata, qarşında and içirəm ki,
Mütləqə İnam uğrunda,
Kamil İnsan uğrunda,
Müstəqil Vətən uğrunda,
Ruhani Cəmiyyət uğrunda,
Özümlü Şərq uğrunda,
Ləyaqətli Bəşər uğrunda son nəfəsimədək ruhani mübarizə aparacam.

Ömrüm sənindir, Ata!
Onu al və istədiyin kimi sərf et!
Andıma xilaf çıxsam, özümü ölmüş hesab edərəm.

**Nəzakət Ulusəs**

*18 Çiçək Ayı, 31-ci il.*
*(aprel, 2009).*

## Soylu Atalı

**Mütləqim, Müqəddəsim, ulu peyğəmbərim Asif Ataya – İnam Ataya ali səcdə ilə!**

## Asif Ata Evladı Ulusəsə
***(Ruhani Bəlgə)***

**Səsimiz uludur–qədimlikdən gəlir: Zərdüşt qədimliyi var, Dədə Qorqud qədimliyi var, Babək qədimliyi var, Hürufi qədimliyi, Füzuli qədimliyi, Muğam qədimliyi, Saz qədimliyi var səsimizdə. Mütləqə İnam Harayına çevrilib səsimiz – İnsanlaşma, Yurdlaşma, Bəşərləşmə çağırışı bəslənilib ürəyimizdə.**

**Səsimiz Sabaha çatacaq qədər ucadır, qutsaldır.**

**Ulusəs adını sənə halal edirik, adına layiq ol!**

**Atamız Var olsun!**

**Mütləqə İnam Ocağının Yükümlüsü**
**Soylu Atalı**

***18 Çiçək Ayı, 31-ci il. Atakənd.***

## *Asif Atanın 75 illiyi qarşısında*

Biz, bu il Asif Atanın anadan olmasının 75 illiyi qarşısındayıq. 13 ildir ki, Ata aramızda yoxdur. Ancaq onun ruhaniyyat Ocağı öz varlığı ilə Atanın ömrünü ölümsüzlüyə qovuşdurdu. Mütləqə İnam Dünyabaxışı Atanın Peyğəmbərliyinin Əbədiliyi deməkdir. Bu aqibət Onun xəlqi səviyyədə yaşamasının təsdiqi oldu.

Atanın möhtəşəmliyini, qüdrətini bütün dolğunluğu ilə ifadə eləmək bugün mənim gücüm dışındadır. Bu səbəbdən Atanın Dünyasına – Mütləqə İnam Ocağına gəldikdən sonra hələlik yaşadığım duyğuları ifadə eləməklə yetərlənirəm. Asif Atanı sevgimin və heyrətimin gücü ilə təqdim eləmək mənə ruhani fərəh verir.

Ata ilə Ruhani təmasda olmaqla, daha doğrusu, Onun Mütləqə İnam Dünyabaxışını öyrəndikcə mənim həyatım öz anlamına doğmalaşmağa başladı. Anladım ki, cəmiyyətçilik həyatı adamın gözündən salır və həyatın anlamına doğmalaşmağı çətinləşdirir. Habelə ağılda, düşüncədə elə bir eniş yaradır ki, ömürdə Yüksək Ruhani duyğulara yer qalmır. Bu günə qədər mövcud olan təlim və ideyalar insanı bu cür özgəlik yaradan əhvallardan qurtara bilməyib.

“Mütləqə İnam”la mən içimdə bu maneəni aşdım. Bu səddi keçmək – Amala yetmək, “mümkünsüzü mümkün etmək” deməkdir. Bu, ikinci dəfə doğulmaq deməkdir həm də. Bununla mənim Ruhani doğuluşum baş verdi. Bu doğuluş mənim Atalılar soyuna qatılmağım oldu.

“İkinci doğuluş yoxdursa, İnsan yoxdur”. “Özünü dərk et, etiraf ləyaqətinə yüksəl, arın, imtina et, özünlə döyüş, kamilləş!” – budur Asif Atanın “İnsanlaşma” fəlsəfəsinin canı!

Asif Atanın “İnsanlaşma” Tələbinə yetdikcə, Dünyanın Dünyadan böyük olan Mənasına inanırsan. Bu İnamla idrak dünyanın mənasını bütün çalarları ilə aça bilir. Dünyanı dərk edirsən. Dərk edirsən ki, İnsanın, Həyatın mənası gözəldir, alidir, Mütləqdir. Bu halı yaşamaq – insan üçün həqiqətə qovuşmaq, xoşbəxtliyə çatmaq deməkdir.

Eyni zamanda görürsən ki, gerçək Dünya mənasından ayrılıb. Ali duyğular gerçəklikdə yaşamır, həqiqət bilinmir.

Dünyanın dərki İnsana ümid verir. Hər cür çətinliyin qarşısında insan İnam meyarı ilə nikbin yaşaya bilər.

Həqiqəti dərk eləmək şərlə döyüşməyi insanın Amalına çevirir. Anlayırsan ki, insan xoşbəxtliyə şəri döyməklə, xeyiri becərməklə yetə bilər.

Asif Atanın ömrünün ayrı-ayrı çalarlarını burada şərh etmədən demək olar ki, Onun ömrü  bütünlüklə şərlə döyüşdür.

Asif Atanın "Ruhani İntibahı" Ömür Yoludur. Onun Ocağı şərlə döyüş üzərində qurulub. "Şər Xeyirin yoxluğudur" deyir Atamız. İnsan öz içindəki şərə qalib gələrsə, İnsani mahiyyətinə yetər.

Mütləqin dərki İnsanın üzərinə ağır Yük qoyur – Məna Yolu getmək, Ali Həyatı qurmaq, Həqiqəti qorumaq və yaşatmaq Yükü.

Bu Yükün sorumluluğu Evladın ömrünü Asif Atanın ömrünə oxşadır. "Olan və Olmayan" əsərində Ata deyir: "Ata Fəlsəfəsi sözündə inadkar bir niyyət də yaşayır: Ata Fəlsəfəsinin Evlad Fəlsəfəsinə çevrilməsi!"

Atanı öz fikirləriylə çatdırmaq ən yaxşı tanıtmadır, məncə. Bu istəklə, sayğılı oxucular, sizlərə Asif Atanın Qutsal Bitiqlərini oxumağı uyğun görürəm.

**Atamız Var olsun!**

## Hünərin yönü

Asif Ata sağ ikən Ocağın nizam Yükünü özü daşıyırdı. Evladlarıyla, daşıdığı Yükün az bir hissəsini paylaşırdı. Onları böyütmədən yükləmirdi. Bunu mən Soylu Atalıdan eşitmişəm. Ata Evladlarına qıymırdı. Qıymırdı ki, dözə bilməzlər, sınmaq təhlükəsi hər an gerçəkləşə bilərdi. Ata öldü. (Altına çiyin veriləsi çətin olan) Ağır Ocaq Yükünün aparıcısı olmaq sorumluluğunu heç kimə tapşırmadı. Nə üçün Ata özündən sonra Ocaq aparıcısının adını söyləmədi? Bu sual hamını düşündürdü, ancaq heç kim buna qəti cavab söyləyə bilmədi. Məncə bu halda da, Ata Evladlarına qıymadı. Hansısa Evladının bu ağır Yükün altına məhz Atanın hökmüylə girməsini, bəlkə də, düzgün saymadı. Ataya olan hədsiz sədaqət, sevgi Evladların hər birini Ocaq Yükünü daşımağa sövq edirdi. Hamı ləyaqət göstərmək, Ocaq Yükünü daşımaq haqqında düşünürdü. Dünyanı yenidən yaratmaq, ona Ata İnamını vermək istəyi, həvəsi, fərəhi hamını qanadlandırırdı. Ancaq bu Müqəddəs Amalı hansı qüvvə ilə yaşadacaqları Evladları çaşqın duruma salmışdı. Bunu ancaq Ataya layiq Qüdrətli, özünə inanan, Yurdunu, Ulusunu sevən aşiqanə bir iradə, hünər yiyəsi edə bilərdi. Ata özü qüdrətli idi, ancaq o vaxt Evladlarında bu keyfiyyəti görmürdü. Əgər kimdəsə aşkarlanacaqsa, o özünü mütləq göstərəcək – düşünürmüş yəqin ki, Ata. Ardıcıl qeyrət göstərmək, ardıcıl hünər göstərmək, Yükün altında yorulmadan yol getmək çox çətin işdir. Aradan vaxt keçdikdən sonra Evladlar dərk etdilər ki, Ocaq onlardan uzaqlaşır və artıq onlar başqa qayğılarla yaşayırlar. (Bu nə səbəbdən baş verdi?!)

Keçmiş Ocaqçılar bu günə qədər Ocaq havasıyla nəfəs aldıqlarını düşünürlər. Bu həqiqətən belədir. Çünki Ocağın cazibəsi insan ömründən uzundur. Bir an da belə, Ocaqçı halı ilə yaşamış insan, ömrünün qalan hissəsini ayrı cür təsəvvür eləmək istəmir. Ancaq Ocaq öz Evladından bir yox, bir neçə ömür yaşada bilən qüdrətli şəxsiyyət olmaq tələb edir. Bunun üçün hərəkət gərək, arzularla,

təsəvvürlərlə yetərlənməmək gərək. Özünü Ocaqla bir görən şəxs belə, bu keyfiyyətlərdən qıraqda ruhani yükə doğma olaraq qala bilmir. Ocağın başsız qaldığı məqamda bu hal özünü açıq göstərdi.

Evladlar Ocağın bir qurum kimi ayaqda qalmasının mümkünsüzlüyünü yaşadığı, onunla vidalaşıb "göz yaşı" tökdüyü bir anda, o dövrə və ənənələrə uyğun olmayan möcüzə baş verdi. Həqiqətən möcüzə baş verdi. Ocaq yerindən tərpəndi, hərəkətə gəldi.

Ata öz inamında yanılmamışdı. Ocağı yaşadan, hərəkətə gətirən Ocaq Qüdrəti özü öz yiyəsini tapmışdır! Bu, Ocağın indiyədək Yükümlüsü olan Soylu Atalıdır.

Başı üstə dayanan Dünyanı ayaqları üstə qoymaq iddiasında olan Ocağı hərəkətə gətirmək fərddən mütləq mənada hünər istəyirdi, – M.Həllacdan başlayan Hürufilərin "İnsan Allahdır" deməyinə bərabər bir hünər.

Baş vermiş möcüzənin heyrətləndirici tərəfi bir də o idi ki, bu hünərin sahibi o anda təcrübəsiz, dərin idrak yolu keçməmiş, qabağa baxan birisi idi. O, yaşayır, yaradır...

"Hünərin təməli – Əxlaqdır!" – deyir Ata. (Asif Ata. "Təməl" Qutsal kitabı).

Burdan aydın olur ki, Ocaq Yükünü çiyninə götürən şəxsin göstərdiyi hünərin təməlində Əxlaq durur. Deməli, Ocaq Yükünü daşımağa Herakl kimi pəhləvan gücü yox, Əxlaqlı hünər gücü gərəkdir. Bu gücü aşkarladığı üçün Ocaq yaşayır.

Bax, budur "Mütləqə İnam" təliminin möcüzəsi.

Ocaq həyat tərzi bir başqa Aləmdir. Həqiqi Dünyanı tapan insanların Aləmi. Zamandan, Şəraitdən, Mühitdən artıq, Uca, Fərəhli.

İnamımız Uca, Ataya layiq olsun!

**Atamız Var olsun!**

## Bəşərin dünəni, bugünü, sabahı

*"İnsanlaşın – İnsanlaşdırın. Bəşərin nicatı*
*İnsanlaşmaqdadır!"*
***Asif Ata***

Deyirik Bəşər özünə dönməlidir! Bu o demək deyil ki, bəşər dünən, bu gün olduğundan daha yaxşı olub və dünəndə olduğuna qayıtmalıdır. Xeyr, bəşər heç vaxt özü olmayıb. Özünə dönmək o mənada deyilir ki, Bəşər öz mahiyyətinə uyğun olmalıdır. Bəşəri, Dünyanı, Həyatı İnsanın mənəvi halı təyin edir. "Bəşər – insani münasibətlər əsasında yaranan mənəvi birlikdir" (Soylu Atalı).

Bəşər – dövlətlərarası, millətlərarası insani münasibətlərin ruhani Birliyidir.

Bəşər – milli, mənəvi dəyərləri ilə zəngin olan xalqların birliyidir. Bu gün bəşər özündən ayrılıb. Bu gün bəşər haqqında danışdıqda onun xilasından danışmaq olar ancaq. Lakin bu gün siyasi güclərin dünyaya ağalıq etməsi zəminində kəskin savaşlar gedir. Ağalıqla Bəşər xilas ola bilməz. Ağalıq – yaradıcılıq, xilaskarlıq hadisəsinə qarşıdır. Ağalıq – Şərdir.

"İdrak ağalığı – Ağa idrakıdır əslində " deyir Asif Ata. Ağa idrakı – Dünya əhalisini ram etmək, özünə tabe etmək, bütün ölkələrin maddi sərvətlərinə yiyələnmək yönündə işləyir. Milyonlarla insanların ölümünə nədən olan savaşlar törətməkdən çəkinmirlər. Siyasi güclərin ağalıq əməlləri sınır tanımır. Onlar dünya əhalisini qul halına salmaq, hamını bir rəngdə, bir biçimdə, bir üzdə görmək arzularını usanmadan həyata keçirirlər. İnsanlardan canlı robotlar düzəltməyi inkişaf kimi tanıdırlar. Bunun üçün Kürəsəlləşmə oyununu demokratiya adlı ideoloji sistemin köməyi ilə genişləndirirlər. Dünyaya hakim olmaq uğrunda törətdikləri qırğınların, savaşların, terrorların nədənini isə uluslararası çəkişmələrdən törəndiyini bəyan edirlər. Guya millətlər bir-biri ilə yola getmirlər. Ona görə də "Kürəsəlləşən Bəşər sınırsız olmalıdır" – deyirlər. Böyük

millətləri parçalamaq prosesində etniklər hədəfə götürülür. “Dünya gücləri” məqsədləri üçün xırda etnikləri zorla terrorizmə sürükləyirlər. Bu gün Demokratiyanın Kürəsəlləşmə üçün saldığı yollarda qan su yerinə axıdılır. Bu qan demokratların, kürəsəlçilərin qanı deyil, dünyada baş verən prosesləri anlamayanların qanıdır. Sadə, sülh içində yaşamaq istəyən insanların qanıdır. Burada əminliklə demək olar ki, kürəsəlləşmənin tələbindən – insanları bütün ülvi duyğularından ayırmaq, təkləmək, zorla üz-üzə qoymaq, aclığı, yoxsulluğu, xəstəliyi onların aqibətinə çevirmək gedişatı doğur. Təcavüz göz önündədir. Heç kəsin gözü kor deyil, ancaq bunu görmür. Zorakılıq qurbanlarının fəryadı göyə qalxır. Heç kimin qulağı kar deyil, ancaq eşitmir. Ölkələrin sərvətləri açıq-açığına oğurlanır, talan olunur. Ancaq hamı susur. Bütün törədilənlərə qarşı cəmiyyət öz əli ilə düzəltdiyi buxovlardan azad olmaq, qurtulmaq barədə düşünən görünmür. Bəs onda kim bu dəhşətə “Yox!” deyəcək; Və nə vaxt?

Asif Atanın İnamına görə insan ruhani varlıqdır. İnsanın üzərində ağalıq eləmək ruhaniliyə ziddir. Bu ziddiyyət asanlıqla aradan qalxmayacaq. İnsan dərk eləməlidir ki, Dünyanı gözəlləşdirən də insandır, onu dağıntılara salan da; Dünyada Ağa-Qul təbəqələşməsini törədən də insandır, bu haldan çıxmaq qüdrətinə qadir olan da.

Deyilənlərdən sual ortaya çıxır: bugünümüzün xilaskarı kim olmalıdır? Kim olacaq? Bax, burda köməyimizə mənəvi dəyərlər gəlir – ruhani milli-mənəvi dəyərlər. Özümüzü araşdırıb öyrənsək, görərik ki, türkün ruhunda insanilik, İnsani məna çox güclüdür. Aydın olur ki, türk yalnız qılınc oynatmaqda məharətli olmayıb. O, yalnız Fatehliyi ilə qüdrətli deyil, türkün möhtəşəmliyi onun ruhundadır – inamında, idrakında, mənəviyyatında, iradəsində. Fatehlik, qəhrəmanlıq, qılınc dövrü bitdi. İndi dünyanı ruhani qüdrətlə fəth etmək vaxtıdır. Bəşəri ruhani qüdrətlə doldurmaq vaxtıdır. Bu gün türkün ruhani qüdrəti görünmür. Bunun səbəbi türkün öz dəyərləri ilə yaşamamasıdır. Türk özünə yad dəyərləri yaşatdı və özünü yadlığın içində itirdi.

Türk Ruhuna, Özümlüyünə, etnik keyfiyyətlərinə güvənərək öz inamını, öz peyğəmbərini, öz kitabını yaratmalı idi. Gücünü, qüdrətini buna sərf etməli idi. Asif Ata deyir, türk bu deyilənləri etsəydi, onda dünyanın ahəngi tamam ayrı bir səviyyədə olardı. Bir millətin yaratdığı mədəniyyəti başqası o vaxt qəbul edə bilər ki, özü bəşəri mahiyyətini ifadə edən dəyər yaratmaq imkanında olmasın. Türkün bu imkanı güclü olduğu halda, bu vaxta qədər aşkarlamadı. Ancaq bu gün boşluğu aradan qaldırırıq. Yeni Dünyabaxış yaradan Asif Ata türk millətinin iç olanaqlarından (imkanlarından) aşkarlandı. Asif Ata dünyanı qurtarmaq kimi çətin görəvi türkün gücü, Ruhaniyyatı içində görür.

Biz Bəşərin sabahını Bəşərə yeni Dünyabaxışın gəlməsində görürük. Bəşər öz mahiyyətinə Mütləqə İnam Ruhaniyyatının gerçəkləşməsi ilə çata bilər. Mütləqə İnam – İnsana İnamdır, İnsanlığa inamdır. Fövqəltəbii hadisə deyil. Bu, göylər səltənətinin hökmü deyil, insanın iç hadisəsidir. “Mütləqə İnam” İnsanlıq dünyabaxışıdır, mənəviyyat təlimidir.

Fikirləşə bilərlər ki, mən türkün qüdrətini, olanaqlarını çox qabardıram. Belə fikir olarsa, mən söz güləşdirməyə girməzdim. Hətta əlavə edərdim: – “Türk dünyanı qurtaracaq”. Burada mənim türklüyümə, türk ruhumun gücünə inanmaq haqqım var. İnam özünü doğruldur. Bu İnam başqa millətlərə kölgə salmır, tərsinə, qaldırır. Çünki Bəşəridir!

**Atamız Var olsun!**

## Evladlığın Evladlarda İfadəsi və Təsdiqi

Asif Ata Mütləqə İnam yönündən Türk Ulusu üçün həyata yeni hal gətirən Ruhaniyyatçılıq əməli yaradıb. Bu gün bu əməlin arxasında duran Evladlıq hadisəsi təsdiqini tapmaqdadır. Evladlıq hadisəsi Ocaq mühitini təşkil edir.

Ocaq – Asif Atanın "İnsanlaşma" Təlimi əsasında qurduğu Ali Həyat tərzidir. Ocaqçı öz həyatını Ocağın tələbi, təməl prinsipləri əsasında qurur. Bu günə qədər 200-ə yaxın soydaşımız Ocağa Evlad olmaq şansı qazanıb. Onlardan ancaq bir neçəsi bu gün Asif Atanın yaratdığı Evladlıq hadisəsinin mənasına varıb, Ataya layiq Evlad səviyyəsinə yetə biliblər.

Ümumən Ocaqda hər bir Evladın özünəməxsus əməyi, əməli, ləyaqəti var. Bu gün Ocağı yaşadan Evladlar vaxtilə Ocaqda olmuş adamların əməyini danmır, hər kəsin işini layiqincə qiymətləndirirlər.

Burada həmin adamların işləri haqqında hərtərəfli söz açmağı yazımın yönünə uyğun saymıram. Sadəcə Ocağı yaşadan bir neçə Evladın – Soylunun, Günevin, Nurtəkinin və Göylünün hünərini tanıtmaq istəyirəm. Bu tanıtımla yazar özü də içində olmaqla başqa Evladların əməllərini kölgədə qoymuram. Bu yetkin Evladların Hünəri mənim də içimə işıq salır, oduma od qatır. Ocaqda böyümə prosesi Böyüklüyə səcdəli münasibətdən başlayır. Mən də bu insanlara həmin münasibəti yaşadığıma görə belə bir qonunu yazıya ala bilirəm. Bu mənim iç fərəhim, iç tələbim, özgürlüyümdür. Bu mənim Ulusəs Atalı olaraq, dörd Ocaq Evladına bəslədiyim duyğularımın etirafıdır, izharıdır həm də.

Asif Ata Evladlarının üzərinə çox ağır Yük qoyub. Ocaq Yükü birmənalı şəkildə bu gün Evladların üzərinə düşür. Ocaq Yükü Ruhanidir, demək, ölçüsüzdür. Bu Yük Ocaqçılar arasında bölünmür. Evlad Özümlüyünə yetə bildiyi dərəcədə Ocaq Yükünün sorumluluğunu daşıyır. Ocaq Yükü – Evladın özünü təsdiq etmək, Ocağı yaşatmaq hünərinə yüksəlməsi anlamındadır. Bu Anlam – Ocağa Evlad gətirmək, Evladı Ocaq tələblərinə böyütmək, Ata İrsinə sahib

çıxmaq, Ocaq ədəbiyyatını yaratmaq, Ocaq ideyalarını həyata keçirmək, Ocağın iç qaydalarına əməl etmək deməkdir.

Evlad Yükü başlıca olaraq özünü yaratmaqdır – Özüylədöyüş əməlinə yetməkdir, imtina müqəddəsliyinə ucalmaqdır, etiraf ləyaqətinə yüksəlməkdir.

Ocaq Yükü eyni zamanda Peyğəmbər işini davam eləmək – fərdi yaradıcılığa nail olmaq, fikir, düşüncə sorumluluğuna yüksəlmək, xalqın içində olmaq, Haray çəkmək, Atanın səsini, nəfəsini öz səsiylə, öz nəfəsiylə xalqa çatdırmaq, xalqyaratma əməliylə ardıcıl yaşamaq deməkdir.

Evlad Yükü Ocaq yaradıcılığıdır. Ocaq yaradıcılığı şərti olaraq Ocağın iki dönəmini qapsayır. Ocağın birinci – 19 il davam edən Ata Dönəmi; ikinci – Atanın vəfatından sonra bu çağa kimi (bu kitabın hazırlandığı ildə 18 illik) Soylu Atalı Dönəmi. Ancaq bununla belə Soylu Atalı Ata Dönəminin ən çalışqan, hünərli bir Evladı – Ocağın Ruhani təşkilatçısı idi.

Ocağın Ata Dönəmində Ocaq Yükünün əsas ağırlığını Asif Ata özü daşıyırdı. Ata dönəminin ilk Evladları müxtəlif yöndə fədakarlıq göstərsələr də, onların arxasında Ata kimi möhtəşəm bir şəxsiyyət dururdu. Ata ilahi qüdrət idi. Atanın cazibəsi var idi...

Ata öldükdən sonra onun Evladları ilk öncə gücsüz, köməksiz, dağınıq durumda qaldılar. Ocaq Yükü yiyəsiz idi. Ocaq parçalandı, dağıldı. Ata külliyyatı, Ata İrsi müxtəlif ünvanlara daşındı. Olayların bu cür gedişi yenidən "bərpa olunacaq Ocağın" işini daha da çətinləşdirdi.

Ancaq, bütün bu çətinlikləri aşaraq, Soylu Atalı Ocağı bir qurum olaraq sanki yenidən qurdu. Bununla Ocağın ikinci dönəmi – Soylu Dönəmi başladı. Ocağın Soylu Dönəminin öz ilkinləri var idi. Ata dönəminin ilkinlərindən fərqli olaraq, onlar Atanın daşıdığı yükü Soylu ilə birgə öz üzərlərinə götürdülər. Bəli, Ocağın Yükünü Soylu Atalı və bütün şüurlu həyatlarını Ocağa həsr etmiş Nurtəkin, Göylü Atalılar öz üzərlərinə götürmüşdülər. Bu dönəmdə Ocağın durumu ağır idi. Ocağı yaşatmaq, Ata irsini qorumaq, Ata irsini sistemləşdirmək müqəddəs bir iş – obrazlı desək, Allahlıq tələb edən iş idi.

Ata irsi, ədəbiyyatı, kitabları, əlyazmaları dağınıq idi. Onları bir yerə yığmaq gərək idi. Bir-bir müxtəlif ünvanlara (bir ünvana bəzən bir neçə dəfə) getmək gərək olurdu. Bu çətin məqamda Göylü və Nurtəkinin misilsiz hünəri aşkarlandı. Öncə Atanın əldə olan, sonra əldə etdikləri əlyazmalarının üzü köçürüldü. Atanın görüntü və səs kasetləri əldə edilir, üzü yazılır, yeni nüsxələrlə götürüldüyü ünvanlara qaytarılırdı.

Atanın və Soylunun yazılarının basın yayımında (mətbuatda) çapına yetməkdən ötəri Nurtəkin bir, Göylü başqa redaksiyaya gedir, söhbətlər edir, təbliğat aparır, tədbirlərə adamlar çağırır, israr edirdilər. Elə vaxt olurdu ki, Soylunun həftə içində 8-12 sayda yazısı çap olunurdu. Bu halın yaranması neçə-neçə ünvanlara ayaq döymək, Asif Atanın Dünyabaxışına inandırmaq hesabına əmələ gəlirdi. Göylü bölgələrə gedir, görüşlər təşkil edirdi. Axşamdan gecəyədək görüşdə paylanacaq ədəbiyyatlar hazırlayır, qəzet məqalələrinin üzünü artırır, səhər onları paylayırdı.

Göylünün sorağı Azərbaycanın batı (Qazax-Ağstafa) bölgəsindən gəldiyi vaxt, Nurtəkin quzey (Quba-Qusar) bölgəsində görüşlər təşkil edirdi. Göylü Lerikdə görüş keçirdiyi zaman Nurtəkin Mingəçevir səfərini başa vururdu. Görüşləri ən çox Soylu Atalı keçirirdi, ancaq bir səfərdə çox görüşlər keçirmək üçün Göylünü, Nurtəkini başqa ünvanlarda görüş keçirməyə yönəldirdi.

Bu əməllərin sonucunda Soylu Atalı Azərbaycanın 40-dan çox bölgəsində 100-lərlə oxullarda, maarif şöbələrində, mədəniyyət saraylarında, ədəbi yığıncaqlarda, kitabxanalarda, Tarix və Diyarşünaslıq muzeylərində çoxsaylı gənc öyrəncilərlə, cavan və orta yaşlı öyrətmən və mədəniyyət işçiləri ilə, sadə xalqla ünsiyyətdə olub, görüşlər keçirib. Bu görüşlərdə Soylunun Ocaq harayları Azərbaycan xalqının qəlbində öz əks-sədasını tapırdı. Bu qarşılıqlı ruhani təmasdan Soylunun gücü günbəgün artır, Harayları daha ehtizazlı, daha vəcdli səslənirdi. Ocağın sorağı yayılırdı. Ocağı yaşatmaq Nurtəkindən, Göylüdən bir yox, bir neçə ömür istəyirdi. Onlar hünərlərinə görə İsa peyğəmbərin həvarilərindən heç də geri qalmırdılar.

Evladlığın Evladlarda hünərli və ərdəmli təsdiqi məhz Ocağın Soylu Dönəmində baş verdi. Məhz bu dövrdə Evladların yaşamında Evladlığın məna tərkibi bütün çalarları ilə açıldı. Evladların Yola, Amala sadiqlik, əmələ Qadirlik dönəmi başladı. Çünki Ata həyatda olmadığı üçün sorumluluq daha böyük idi. Məhz bu dönəmdə Ata Möhtəşəmliyi, Ata Qüdrəti Evlad varlığında öz təsdiqinin yüksək mənasını ifadə etdi.

Atanın Ocaq Yükünü, qayğılarını, sorumluluğunu Mütləq şəkildə öz üzərinə götürməklə Evladlar daha böyük bir təsdiqə imza atdılar – Ata Möhtəşəmliyinə, Atanın İlahi Qüdrətinə, Ata cazibəsinə yeni baxış Ocaqda dayanıqlı Evlad halı yaratdı.

Bu dönəmdə hamının gözü qarşısında və heç kəsin gözləmədiyi bir hadisə baş verirdi – Soylu yaranırdı. Soylunun Ruhani Dünyası yaranırdı. Soylu Evladlıq Zirvəsini fəth edirdi. Ata Qüdrətinə doğmalaşırdı. Soylunun Ocağı yönləndirəcək Ruhani qüdrəti formalaşırdı.

Ata ölməzliyi, İdeya ölməzliyi yaşayır Ocağın Soylu Dönəminin əməllərində. Əməlin, Hünərin ilahiləşməsi, Göyləşməsi yaşanır Soylu Dönəminin Ocağında.

Ocaq təşkilatlanır, Ocağa cəmiyyətin marağı artır, Ocağa rəğbət edənlərin sayı coxalır. Soylu Ocağa yeni Evladlar gətirir, onları böyüdür. Yeni Evladların da gəlişi Ocağın gücünü artırdı. Ancaq onların içində Ocaq Yükünün əsas ağırlığı bir qayda olaraq Göylü və Nurtəkinin üzərindədir. Göylü Ocağın Ruhani təşkilatçısıdır. Bu Ruhani sorumluluq Göylünün gücünü birə on artırır, tükənməz enerjisini Ocağın Ruhani həyatına yönəldir. Evladlıq hadisəsinin Mütləq mənası bir olsa da, bu mənaya hər bir Evlad öz fitrətində olan ülvi, ruhani, fərdi bir keyfiyyəti ilə yol açır. (Bu keyfiyyəti aşkarladığı təqdirdə).

"Göylünün hünərində Tanrı xisləti var. Onun ilahi ruhunda sığmazlıq təcəlla tapıb" (Soylu Atalı). Göylünün Ocağa gəlişi də, tez bir zamanda Evladlığa yetməsi də sığmazlığın təzahürüdür. Göylü fiziki dairəsinə sığmadı, evinə, ailəsinə, əqrabasına sığmadı, zamanına, mühitinə sığmadı. Ali həyata doğru yürüdü.

Göylünün Mütləqlə görüşünə sığmazlıq fitrəti yol açdı, Nurtəkinin Mütləqə heyranlıq aqibətinə onun səcdə ləyaqətinə yetməsi səbəb oldu.

Nurtəkin Ataya, Mütləqə, Böyüklüyə səcdənin ləyaqət səviyyəsinə qalxdı. Nurtəkin Ataya səcdə ucalığında yaşadıqca Soyluya heyrət etdi, Evladlığını da bu səcdədə, bu heyrətdə qurdu. Nurtəkin inamlıdır, bu inamı ona müdriklik, təmkinlik gətirdi.

Nurtəkin görəcəyi əməlin üstünə yüyürmür, öncə içinə girir, işi içdən yaradır. Bu, Göylü Hünəri deyildir, Hünərin başqa, fərdi biçimidir. İnamlı, tədbirli, təmkinli. Hər iki halda hünər ilahiləşir, Evlad Amala yaxınlaşır, Amalda özümlüyünün təsdiqini tapır. Ocaq var olur.

Ocaq Yükünü daşımaq baxımından Evladlığın Evladlarda təsdiqi başlıca üç böyük yöndə gedir:

Birinci – Ocaq tədbirlərinin təşkili və gedişində Evladlığın təsdiqi;

İkinci – Ata (Ocaq) irsi quruculuğunda və Atadan sonrakı dönəmdə Ocaq irsinin yaradılmasında Evladlığın təsdiqi;

Üçüncü – Özünüyaratma əməlində Evladlığın ruhani ifadəsi. Ocaq tədbirlərinin təşkili və gedişində Evladlıq təsdiq olunur.

Hər bir Ocaq Tədbirinin təşkili gedişat yazısıyla başlayır, tədbirə qonaqlar çağrılır. Desək ki, çağırılmanı qəbul edən hər 10 nəfərdən 2-si tədbirə qatılır, deməli, tədbirdə ideyaların başqalarına verilməsi üçün neçə ünvana üz tutmaq, neçə ünvanda Ocağın yerişini təbliğ etmək, yaymaq gərək olur.

Tədbir günü tədbir Odası hazırlanır. Tədbirin ruhani tənzimlənməsindən tutmuş mərasimin içsəs-izhar hissəsi başa çatdıqdan sonra çay süfrəsinin ruhani səviyyədə təşkilinə qədər, hər şey tam dəqiqliyi ilə başa gəlir.

Foto, görüntü və səs yazı vasitələri hazırlanır, gərək olan kaset və disklər alınır. Hər tədbir iştirakçısına qabaqcadan hazırlanmış Ocaq hədiyyələri verilir. Bu, fotoalbom, Atanın səsini, yaxud görüntüsünü əks etdirən disklər, keçmiş tədbirlərin yazıya və ya diskə köçürülmüş nüsxəsi, Ocaq Yükümlüsü Soylu Atalının və başqa Evladların mət-

buatda çap olunmuş yazılarının üzü, Ocaq yaradıcılığını qapsayan kitablar və b. ola bilər. Hər bir tədbirin öz ruhani məzmunu, öz gedişat qaralları var. Tədbirin həm izhar, həm Doğmalaşma hissəsini bir qayda olaraq Ocaq Yükümlüsü Soylu Atalı nizamlayır.

Soylu Atalının insanların İnam Duyğularını oyadan və tədbirin məzmununu ifadə edən Mütləq üstə harayları tədbir iştirakçılarını məna üstə kökləyir. Evladlar bu əhvalla izharlarını söyləyir, bu əhvalla qonaqların fikirləri dinlənilir.

Tədbirin gedişatı görüntüyə alınır, diktafona yazılır, sonra üzü yazıya köçürülür, kitablaşdırılır, arxivləşdirilir. Disk variantı yayılır.

Ocaq tədbirlərinin işgörmə olanaqlarını araşdıranda görünür ki, hər bir tədbirin Evladların Amallaşması, Kamilləşməsi, Xalqlaşması yönündə rolu çox böyükdür və ruhani biçiminə görə qarşılıqsızdır.

Ocaq ildə 4 bayram, 9 mərasim, 12 Ailə Günü, öncələr 12, son zamanlar görüş-tədbirlərin sıxlığından asılı olaraq, 6-8 Amallaşma-Doğmalaşma tədbirləri keçirir. Bundan başqa, Ocaq oxullarda gənclərlə çoxsaylı görüşlər keçirir, Ocaq sorağını vermək üçün dış ölkələrdən gələn soydaşlarımızla görüşür, Ocaq ədəbiyyatının tanıtım tədbirlərini keçirir və b. Hər bir tədbirin təşkili ümumən 3-4 Evladın təşkilatçılığına hesablansa da, bütün tədbirlər, ona sərf olunan maddi yatırım da daxil olmaqla, ən çox Göylünün ağla sığmayan fədakarlığı hesabına gerçəkləşir. Göylü heç kimin qatqısı olmadan, hətta diqqəti çəkmədən böyük bir mərasimi, istər o çoxsaylı insanların qatqısı ilə keçən tədbir olsun, istər ətrafına daha çox qonaqlar toplayan səfər tədbirləri, – elə ruhani səviyyədə təşkil edir ki, hamının duyğularında “bu, belə də olmalıdır” arxayınçılığını yaradır.

Göylünün Ruhani təşkilatçılığı İlahi əməldir. Bu əməlin arxasında yaradıcısının görünməməsi (görüntü yaratmağa çalışması) isə Göylünün şöhrətə sığmayan ləyaqəti ilə bağlıdır.

Ata-Ocaq quruculuğu və Atadan sonrakı dönəmdə Ocaq irsinin yaradıcılığı zamanı Evladlar öz təsdiqinin daha yüksək aşamasına qalxır.

Ata irsi Ocağa dağınıq halda miras qalsa da, bu gün Evladlar bu yöndə gördükləri əməlləriylə qürurlana bilərlər. Atanın irsi əsasən dağınıqlıqdan qurtuldu.

Ata irsinə Onun 45 Qutsal kitabı, 7 kəlamı, Sovet dövründə çap olunmuş başqa kitabları, çap halına salınmamış çoxlu sayda əlyazmaları, dövrü mətbuatda çap olunan əsərləri, müsahibələri, izharları, məktub biçimli yazışmaları içərilidir. Bundan başqa Atanın DTK tərəfindən alınan (müsadirə olunan) yazıları, Özüylədöyüş gündəlikləri, Atanın gömülməsiylə bağlı Ocağın əlindən alınmış görüntü kasetləri (Beyləqanda DTK-nın aldığı materiallar Ocağa qaytarılmayıb) içərilidir (daxildir). Bura həmçinin, Atanın keçirdiyi Ocaq Tədbirləri, çoxsaylı görüşləri, bölgəyə səfərləri zamanı çəkilmiş görüntüləri, Dövlət TV-lərə verdiyi müsahibələri, apardığı verilişlərin lentə alınmış görüntü və səs yazı kasetləri içərilidir.

Aydındır ki, 62 illik ömrünün şüurlu hissəsini Yeni Dünyabaxışın yaranmasına sərf etmiş Peyğəmbərimizin yaradıcılıq İrsi ölçüyə sığmayan dərəcədə zəngindir.

Atanın qələmindən çıxan hər bir cümlənin, dilindən eşidilən hər bir kəlmənin Evladlar tərəfindən axtarılıb tapılması Ata İrsini zənginləşdirən, onu bütövləşdirən ruhani əməldir. Bütün bunları bir yerə yığmaq, qorumaq, sistemləşdirmək, artırmaq, yaymaq ləyaqət hadisəsidir, ruhani ömürlərin işidir.

Arxivyaratma əməli Ocağın Soylu Dönəminin ilk günündən başladı. Hazırda Atanın böyük bir irsi – minlərlə əlyazma və çap nüsxələri Dövlət arxivinə verilib.

Atanın 70-dən çox (300 saatlıq) təkər-disk səs kasetlərinin Dövlət Arxivində üzü köçürülüb. Bundan başqa, Atanın 100-dən çox səs, onlarla görüntü kasetləri diskə köçürüldükdən sonra əsli və disk variantının bir nüsxəsi Dövlət arxivinə verilib. Qalan nüsxələr Evladların və başqa Ocaqsevərlərin evlərindədir.

Atanın 50-yə yaxın kaset yazıları səsdən sözə çevrilib, yazıya alınıb, bilgisayarda kitablaşdırılıb, arxivləşib.

On min səhifədən çox Atanın əlyazmalarının üzü köçürülüb, arxivləşib. Ata şəkillərindən oluşan onlarla fotoalbom düzəldilib.

Ocağın Atadan sonrakı dövrünə içərilənən mindən çox fotoşəkil çıxarılıb, albomlaşdırılıb (bu şəkillərin hər biri İnam işlərini əks etdirir).

Atanın 13 adda kiçik həcmli kitabları müxtəlif saylarla çap olunub.

Dövrü basın yayımında (mətbuatda) çap olunan Ocaq yazıları cildlənib, kitab biçiminə salınıb. Bir nüsxəsi arxivdə, qalanları ayrı-ayrı ünvanlarda qorunur.

Ocağın altı özəl buraxılışı hazırlanıb. Hərəsi 1500-2000 nüsxədə olan Buraxılışlar Azərbaycanın çoxsaylı bölgələrinə yayılıb.

Ocağın Atadan sonrakı dövrünü qapsayan tədbirlərdən 400-dən çox səs, 50-dən çox görüntü kasetləri hazırda işlənilir. (Yüzlərlə səs və görüntü diskləri bunlara özgün (aid) deyil). Nüsxələr artırılır. Hər il minlərlə Ocaq-türk abesi hazırlanıb paylanır.

Asif Atanın 45 Qutsal Kitabı 13 cilddə "Qutsal Bitiq" adı ilə iki abedə (latın və türk) bilgisayarda yığılıb, kitablaşdırılıb, bir neçə ünvanda Törən səviyyəsində qəbul olunub (bu əməl bu gün də davam edir).

Ocaq son üç ildə hər biri 400-500 nüsxə olmaqla 9 kitab çap etdirmişdir. Bu kitabın hazırlandığı vaxt 17 kitab basılmışdır. Ata irsi kimi Ocağın Atadan sonra yaratdığı irsi də tükənməz bir həvəslə, eşqlə qorunur, sistemləşdirilir, tədbirlərin, görüşlərin lent və disk yazıları artırılır, yayılır, arxivləşdirilir.

Asif Atanın yaradıcılığı möcüzədir. Şəxsiyyəti, ömür yolu, kitabları, kəlamları Onun Qüdrətini ifadə edir. Atanın Qüdrəti ideya yaradıcılığında, milli-insani haraylarında bütün çağlarda özünü göstərib.

Göylü üçün, Nurtəkin üçün Ata irsini xəlqi gələcəyə çevirmək – özlərinin təravətli gənclik dünyasını Ata işini yaşatmağa dəyişməkdir – Gənclik duyğularını Böyük Yola bağlanan duyğularla əvəz etmək deməkdir. İmtina ləyaqəti üstə yaşamaqdır.

Göylü Ata irsinin qurucusuna çevrildikcə Mütləqlə ünsiyyətdə yaşadı. Nurtəkin də eləcə, – bu əməl başında Ataya, Mütləqə heyrət üstə yaşadı, qəlbi uca duyğularla doldu.

Ata İrsini arxivləşdirib sistemləşdirmək Göylünün ilk yaradıcılıq əməli oldu. Ocaq arxivinin qurucusu olmaq Göylü üçün yeni fəaliyyət olanaqları açdı.

Qısa müddətdə Göylünün zəhməti ruhani ləyaqət örnəyinə çevrildi. Göylünün işlərinə heyran olmamaq mümkün deyil. Onunla hünər yarışına girmək də, açığı, asan yeriş deyil.

Görülən işlərin tutumu tək Atanın zəngin külliyyatı ilə məhdudlaşmadı, bu həm də hər gün yeniləşən Ocaq Tədbirlərinin yazıya alınması, ədəbiyyata çevrilməsiylə davam edir. Təkcə Soylu Atalının Ocaq quruculuğu yönündə yaratdığı hala yetmək – ardıcıl və ciddi ruhani yaşamaq tələb edir. Söz yox ki, Ata-Ocaq irsinin sistemli biçim almasında bütün Evladların özlərinə xas əməyi var. Ata səsinin səs kasetlərindən yazıya çevrilməsi bütün Evladların əməyi ilə başa gəldi. Hətta Ocaq Yükü ilə ən çox yüklənmiş Soylu Atalı səsdən sözə çevirmə işinə birbaşa qatıldı. O, nəinki Ata səsini yazıya köçürür, həm də bu yöndə olan bütün yazıların redaktəsi ilə məşğul olur. Bütün hallarda olduğu kimi, bu işin də tamamlanıb ortaya gəlməsində Göylünün üzərinə götürdüyü əməllə ancaq Nurtəkinin əməyi tutuşdurula bilər.

Nurtəkin və Göylünün Ata-Ocaq irsi quruculuğu yönündə özünüyaratma əməli, Asif Atanın ifadəsiylə desək, "İradənin əmələ sahib olması"dır.

Atanın Ocaq Quruculuğu ondan sonrakı dönəmdə çox ahəngdar davam eləyir. Bu dövr Soylu Atalının Ruhani Quruculuq aşamasını təşkil edir.

Bu dönəmdə Ocaq irsinin ən uca dəyərlərindən biri – Ocağın toy-yas quralları yarandı. Ölügötümə qurallarının yaranması Asif Atanın gömülmə töreninin təşkili və gedişiylə başladı. Ata dönəminin Ruhani Təşkilatçısı olan Soylu Atalı Asif Atanın Yas Töreninin gedişatını tərtib elədi. O, bunu, Atanın ölümlə bağlı fəlsəfi-ruhani baxışı əsasında gerçəkləşdirdi. Ata nəşinin yerdən götürülməsi, torpağa qoyulması Soylunun hazırladığı bu gedişat yazısıyla həyata keçdi. Ata fəlsəfəsində insanın ölməzliyi, bədəndən üstün olan ruhani

xilqət olduğu əsasdır. Soylu Asif Atanın bu fəlsəfi fikirlərini Törən (Mərasim) biçiminə saldı və bununla da xalqın ruhani mahiyyətini ifadə edən "Ölügötürmə Qaydaları" yarandı. Bu, Ata irsi içində yeni Dünyabaxışın əsaslı hadisələrindəndir. Millətin öz ruhundan, Türk Özümlüyündən yaranan toy-yas qurallarının yaranması milli varlığımızda Yeni aşamadır. Gələnək-görənəyə çevriləcək bu Qurallar insanların milli müəyyənliyinin təsdiqi, özünüifadə olanağıdır.

Özünüyaratma əməli – Evladlığın ruhani təsdiqidir.

Özünüyaratma Evladlıq hadisəsinin bütün aşamalarında mövcud olur. Bu, Asif Atanın İnsanlaşma Təliminin əsas müddəasıdır.

Özünüyaratma – İnamın harayını çəkmək, hünər göstərmək, təmənnasız yaşamaq, fədakar yaşamaq səviyyəsini yetirir. Etiraf, İmtina – Özünütəsdiq bütövlüyüdür. İçindəki naqislikləri öldürmək, içindəki əsarəti öldürmək, içindəki balacalığı öldürmək...

Evlad bu əməllər zamanı çoxçeşidli imtinalardan keçir, Adamlıq duyğularını etiraf etdikcə bütövləşir, böyüyür. Çirkabla, Günahla, Yalanla döyüşmək və Amal Yükünün altında ləyaqətlə yaşamaq. İnsan kamilləşir. İnsanda – İnam, İdrak, Mənəviyyat, İradə birliyi yaranır.

Evladın özünü yaratma əməli axıra qədər – ölümünə qədər davam edir. Ocaq tədbirlərində, xalqla görüşlərdə Evlad həm amallaşır, xalqlaşır, həm də özünü yaradır. Dünyanı yenidən dərk edir, həyatı yenidən anlayır, təbiəti yenidən duyur. Özündəki, təbiətdəki, dünyadakı mənaya üz tutduqca Evlad Ataya bir addım da yaxınlaşır, Mütləqə qovuşur.

Bu əməl daim genişlənir – oxu zamanı, düşüncələri yazıda ifadə eləyərkən, özüylə üz-üzə qaldıqda – etiraf qətiyyəti göstərdikdə, imtina ləyaqətinə ucaldıqda, İnsanlıq Harayını çəkdikdə...

Ruhaniyyat tarixində İnsanlıq Harayını İnsana İnam ölçüsü ilə ilk dəfə Asif Ata çəkib. İndi bu Harayı Soylu Atalı çəkir.

Asif Ata Kamil İnsandır“. Ata Ocağın canlı Mütləqidir”. Onun İnsanlıq Harayı Mütləqin ifadəsidir.

Soylu Haray çəkmə qüdrətinə özünü yaratma ləyaqətiylə birlikdə yüksəlib.

Evladlıq İnam harayını çəkmək hadisəsidir – Qutsallığa, İlkinliyə, Mütləqə çağıran Haray.

Bu harayçılardan biri də Atanın Evladı Günevdir. Günev fitri Ocaqçıdır. Ocaq tarixində Günevin özəl yeri var.

Günev öz bölgəsində daim Ocaq harayı çəkir. Onun haraylarında həm əzəmət var, həm hiddət, həm sevgi, həm də inam.

Günevin harayı ehtizazlıdır, vəcdlidir, coşqundur, doğmadır.

Günev harayı ilə insanları Ata Yoluna – İnsani Gələcəyə – haqqa, ədalətə, vicdana səsləyir.

Günevin qutsallığa çağıran harayları insanda dönməz inam yaradır, ürəkləri riqqətə gətirir, “insanda ruhani əməl tərbiyə edir” (Soylu Atalı).

Günev harayının odu-alovu Ocağa bütöv şəkildə bağlılığından gəlir. Eşqi-aşiqliyi onu Ataya qovuşdurur. Onun bu halı Ataya inamının və sevgisinin göstəricisidir.

Günevin Ocaqçılıq halı müdrik Evlad anlamındadır. Bu hal Atanın gömülməsiylə ilə bağlı olaylarda çox aydın şəkildə özünü göstərdi. Günev çiynini Soyluya söykəyib tarixi görənəklərin əsasını qoydu. Atanın ilk sonevi (qəbri) ilə tarixləşən Amal Bağını böyük bir sevgi ilə bu günə qədər qorudu.

Günevin üzünü göylərə tutub haray çəkməsi – Türkün qədimliyini, əzəliliyini – Türk ruhunu Mənadan Yaşama çağırır sanki. Dədə Qorqudluq yaşayır Günevin halında. Bu hal onun Evladlıq Aqibətini əbədiləşdirdi.

Yadlığa qarşı hiddətinin aşıb-daşdığı anlarda belə Günevin durumu elə aydın, elə doğmadır, insan özünü onun müdrikliyi qarşısında rahat, arxalı, dayaqlı hiss edir.

Günev Atadan, Soyludan güc aldıqca yaşadığı bölgədə və yörədə Türkün Ruhaniyyat Ocağının sorağını daim genişləndirir. O, Amal Bağında "İnam Evi" yaratdı, Evin "Odqoruyanı" oldu. Amaldaşı, dostu Soylu Atalı ilə birlikdə "Amal Bağı"nda Türk Ruhaniyyatının İlk Məbədinin təməlini qoydu. Buna görə ona qarşı dinin qaragüruhu tərəfindən ardıcıl basqılar oldu, bu gün də davam edir. Dövlət rəsmiləri də onların tərəfində durdu. Günev İranın dini etkisninin güclü olduğu bir bölgədə iyirmi ildir inadla İnamı yayır, tənələrdən, basqılardan usanmır, geri durmur.

Soylu Atalı demiş, "Günev tarixi şəxsiyyətdir. O, Türkün Ruhaniyyat tarixində özünəməxsus yeni səhifə yazdı – nəsillərə örnək olmağı ilə".

Mən Evladlıq zirvəsinə yüksəlmiş 4 Ocaq Evladı haqqında gücüm çatan qədər bəhs etdim. Onların yaşadıqları ömür mənim bu yazıda təqdim elədiyimdən daha geniş və məzmunludur. Onları tanımaq və tanıtmaq İnamın xalqda yayılmasına qulluq edir. Mən də əslində Asif Atanın Yoluna öz ruhani qulluğumu ifadə elədim. Onu da deyim ki, mən bu yazıda Ocaq Yükümlüsü Soylu Atalı haqqında xüsusi bəhs eləmədim. Onun ömrü və Ruhani Quruculuğu ayrıca bir aşamadır. Bu aşamanı bütöv yazıya almaq hələlik mənim gücüm dışındadır.

**Atamız Var olsun!**

## Babək – Özgürlük Peyğəmbəridir

**On dörd mart Babəkin qətl günüdür**

Babək zamanın ideoloji baxışlarına sığmayan dəyər hadisəsidir. Son vaxtlar Babək haqqında əsərlər çap olunur. Bu əsərlərdə Babək yanlış qiymətləndirilir. Ərəb xilafəti, rus kommunist rejimi dövründə olduğu kimi. Dövrünün ziddiyyətli ideoloji basqıları altından çıxa bilməyən müəlliflər əsərlərində Babək surətini yarada bilməzlər. Onlar Babəki ən yaxşı halda qəhrəman, döyüşkən sərkərdə kimi təqdim edirlər. Babək bu deyil. Babək özgürlük peyğəmbəridir. Onun ömrü işgəncəli ölümlə bitən peyğəmbər ömrüdür.

**On dörd mart Babəkin qətl günüdür**

Bu gün Babək qətlə yetirildi. Onun qolları, ayaqları doğranıldı. Babək şaqqalandı, parça-parça edildi. Xilafət Babəki doğramaqla cismini deyil, Babək möhtəşəmliyini, Babək yenilməzliyini məhv etmək niyyətində idi. Babəki şaqqalamaqla qatillər Babəkin Atalıq qüdrətini, Sərkərdəlik bacarığını öldürdüklərini düşündülər. Babəki parça-parça etməklə bədxahlar Babəkin Fərəh İnamını, özgürlük Peyğəmbərliyini yox etdiklərini düşünürdülər. Ancaq qətlin dəhşətinə baxmayaraq, Babək yaşamaqda davam edir.

**Babək Qəhrəmanlıq zirvəsidir**

“Babək Zərdüştçülükdə yüksələn Peyğəmbər idi, həm də peyğəmbərə qəhrəmanlıq bəxş olunmuşdu. Babək möhtəşəmliyi qarşısında Spartak çox cüzi hadisədir, onunla müqayisə olunmazdır”. (Asif Ata. “Uluyurd Aqibəti – Bütöv Azərbaycan”).

Müstəmləkəçilik əsarətindən azad olmaq istəyən insanlarımız bu gün də Babəkin Azadlıq özgürlük ruhuna üz tuturlar. Onlar Bəzz qalasına – Babək qalasına üz tuturlar.

**Babək ordu yaradıcısıdır**

Babək yox yerdə ordu yaratdı, onun sərkərdəsi oldu. Babək sərkərdəliyi Napoleon, Teymur, Çingiz, hətta İsgəndər sərkərdəliyi deyildi, onlardan üstün hadisə idi. Dövlətin başında durub onun ordusuna öndərlik etmək bir məsələdir, dövləti olmayan ölkədə ordu yaratmaq başqa məsələ. Özü də Babək elə ordu yaratmışdı ki, "bu ordu başı Bağdadda, ayağı Hindistanda olan Xilafət ordusu ilə pəncələşirdi" (Asif Ata. "Uluyurd Aqibəti – Bütöv Azərbaycan").

**Babək Dövlət yaradıcısıdır**

Babək xalq yaratdı. Xalqın bayrağını yaratdı. Babək dövlət qurdu, onu yönləndirdi. Etnik tayfaları bir əqidə, bir İnam yörəsində birləşdirdi. Xalqın ruhani Atası oldu, Atalıq Dövləti yaratdı.

**Babək Hərəkat yaradıcısıdır**

Babək Xürrəmilər Hərəkatını yaratdı. Hərəkat ordu deyil. Ordu döyüş, mərdlik, qəhrəmanlıq, yenilməzlik hadisəsidir. Hərəkat qalibiyyət yoludur.

**Babək Özgürlük Peyğəmbəridir**

Babək İnam yaradıcısıdır. Babək Azərbaycanın dəyər yaratmaq gələnəyinə sadiq çıxdı. O, Xürrəmdinlik təlimini, Fərəh inamını yaratdı. Özgürlükdən fərəh almaq İnamını. "Yenilməzlik uğrunda döyüş insanı Müqəddəs Fərəhə qərq edir. Zora əyilməmək, Zoru

yenmək, Özümlüyünü qorumaq – Müqəddəs Fərəhdir". Asif Ata bu Fərəhi yaratdı Babək insanların həyatında. Belə ləyaqətli yaşam təkcələrə nəsib olur.

İnsanları bəndə, millətləri ümmət görən Xilafət Babəkin "Fərəh" fəlsəfəsini məhv etdi, yandırdı. Çünki "Fərəh İnamı Xilafət inamına içdən qəti şəkildə zidd idi, onu kökündən sarsıdırdı" (Asif Ata. "Uluyurd Aqibəti – Bütöv Azərbaycan"). Xilafətin dini inancı bədəvi ərəblərin inancından köklü surətdə fərqlənmədi. Qul-ağa, yoxsul-varlı təbəqələşməsi çirkabından uzaqlaşa bilmədi. Onlar insanın fərəh duyğusunu qeyri-ruhani, antiinsani məqamlarda gördülər. Xilafət zoru eybəcərdir, keçicidir, sonludur. Ona görə Xilafət zoru insanın mənəviyyatını, həyatın mənasını sona qədər əyə bilməyəcək. "Türk ruhu ərəb ruhsuzluğu ilə zorlana bilməz" (Soylu Atalı).

**Babək türkün ölməzlik hadisəsidir**

Babək zamanüstü hadisədir. Bu səbəbdən ölməzdir, əbədidir, sonsuzdur, kamildir. Öncə ərəb, sonralar fars tarixçiləri Babəkin ölməzliyindən qorxuya düşərək, Babək hadisəsini yanlışa uğratdılar. Onun adını yalan və böhtanlarla qarışdırdılar. Babəkin qutsal ruhunu təhqir etdilər. Ərəb-fars düşüncəli başqa tarixçilər isə "düşmənin təhqiri tərif kimi qəbul oluna bilər" – fikrindən ehtiyat edərək, Babəkdən "müsəlman", "müsəlman-türk sərkərdəsi" düzəltməyə cəhd etdilər. Bu günün özündə də onu yolunu azmış övlad kimi qiymətləndirirlər. Guya Babək Xilafətə qarşı deyil, xəlifələrə qarşı vuruşub. "Əslində Babəkin məqsədi Xilafəti – Xilafətçiliyi Yer üzündən silmək idi" (Asif Ata).

## Babək Türkün Bənzərsizlik olayıdır

Babək əslində Azərbaycanın sınırlarını, sərvətlərini deyil, türkün bənzərsizliyini qorumaq uğrunda vuruşurdu. Çünki Bənzərsizlik Var olmaq deməkdir. Babək həqiqətlərini onun çağdaşlarının yazılarından damla-damla yığmaqla bütün Batı kitab evlərini ələk-vələk etməklə əldə etmək olar. Ya çətin, uzun sürən həqiqət axtarışı, ya da dəryalar qədər yanıltma və təhqirlər, yalan və böhtanlar dolu ərəb-fars qaynaqları. Babəkə türk ruhaniyyatı açımından yanaşdıqda onun əlçatmazlığı vərəq-vərəq açılır. Ən acınacaqlı odur ki, türk tarixçiləri Babək haqqında ya susur, ya da ərəb-fars yazılarından qaynaqlanırlar.

"Babək Azad Ağıl, Azad Ürək, Azad İradə, Azad Yurd uğrunda döyüşən İnam hadisəsidir" (Asif Ata). Bu hadisə haqqında həqiqətlərə əsaslanaraq danışmaq gərəkdir. Başqa cür yanaşma Azərbaycanın milli müəyyənliyinə qəsddir.

Azərbaycan Ümumbəşər siqlətli, Doğu mahiyyətli, Türk ruhlu Zərdüştçülük, Dədə Qorqudluq, Hürufilik, Füzulilik, Muğam, Saz verdi dünyaya. Azərbaycan unikal hadisədir. Bəşər tarixində Azərbaycan kimi zəngin dəyərlər yaratmaq gələnəyi olan ikinci ölkə yoxdur.Yaratdığı dəyərlərlə yaşamasa da.

Nəimilər, Nəsimilər, Şəms Təbrizilər, Asif Ata yetirən millət dünyaya mənəviyyat verməkdə ən şanslı millət sayılmalıdır. Babək hadisəsi Azərbaycanın milli dəyəridir.

Babək türk ruhundan yaranıb, türk ruhunda yaşayır. Babək ulusumuzu yaşadır.

**Atamız Var olsun!**



“Uluyurd Hərəkatı” toplantısı, 28 Şölə Ayı, 29-cu il.



“Uluferəh” “Ailə Günü” toplantısı, 26 Od Ayı, 30-cu il.



“Xəlqilik” Bayramı, 13 Şölə Ayı, 32-ci il.




“Uluyol-Hünər” “Ailə Günü” toplantısı. 20 Qar Ayı, 34-cü il.




Zəhra xanımın “Yas Mərasimi”, 3 Qürub Ayı, 33-cü il.




Rafiq Tağının “Yas Mərasimi”, 27 Yağış Ayı, 33-cü il.




“Ailə Günü” Mərasimi, 6 Köçəri Ayı, 33-cü il.



“İnam Evi Günü” Törəni, 13 Yağış Ayı, 33-cü il.



Ulusəs Atalı və  Nəsibə xanım



"İnam Evi"nə Ata Bitiqlərinin hədiyyə olunması.




"Uluyol-Hünər" "Ailə Günü" toplantısı, 25 Günəş Ayı, 34-cü il.




Soylu, Günev və Göylü Atalılarla söhbət,
23 Qar Ayı, 34-cü il.



“Uluyol-Hünər” “Ailə Günü” toplantısı, 28 Xəzan Ayı, 34-cü il.



“Ruhani İdrak Günü” Mərasimi, 25 Çiçək Ayı, 33-cü il.




“Ruhani Səfər Günü” Mərasimi, 27 Sərt Ayı, 34-cü il.




“Uluyol-Hünər” “Ailə Günü” toplantısı, 29 Şölə Ayı, 35-ci il.




“Uluyol-Hünər” “Ailə Günü” toplantısı, 28 Qürub Ayı, 33-cü il.




“Ata Günü” Mərasimi, 25 Ata Ayı, 34-cü il.




“İnsanilik” Bayramı, 14 Günəş Ayı, 35-ci il.




“Uluyol-Hünər” “Ailə Günü” toplantısı, 25 İşıq Ayı, 35-ci il.







“Atagün” “Ailə Günü” toplantısı, 30 Xəzan Ayı, 34-cü il.




“Uluyol-Hünər” və “Ulufərəh” “Ailə Günü” toplantısı,
26 Qürub Ayı, 34-cü il.




“Uluyol-Hünər” “Ailə Günü” toplantısı, 28 Xəzan Ayı, 34-cü il.



“Uluyol-Hünər” və “Ulufərəh” “Ailə Günü” toplantısı,
1 Qar Ayı, 36-cı il.



Elmira xanımın “Yas Mərasimi”, 15 Köçəri Ayı, 36-cı il.

## Dönə-dönə Atatürk...

### Atatürk qəhrəmanlığı – türkün ölümü yenmə qüdrətiydi

Atatürkün başçılıq etdiyi Çanaqqala döyüşü elə andır ki, buradan o dövr üçün türkün yenidən doğulub "var olmaq" tərcümeyi-halı başlanır. O savaşlarda göstərdiyi qəhrəmanlıq millətin yenilməzliyini bir daha təsdiqlədi. Bu döyüşdə Atatürkün bəlli "Mən sizə ölmək əmri verirəm!" hökmü 200 min türkü şəhidlik zirvəsinə yüksəltməklə, ulusu ölümsüz etdi.

Onlar şəhidlik qanından boyadıqları İstiqlal Bayrağını özləri ilə birlikdə Göylərə qaldırdılar və türk toplumları üçün özgürlük rəmzinə çevirdilər. Bu Bayrağın al-qırmızı rəngi, çoxlarının düşündüyü kimi, Avropa çağdaşlığını yox, şəhidlik ruhunun ucalığını bildirir.

Atatürk millətinin, yurdunun özgürlüyü uğrunda şəhidlik zirvəsinə ucalanadək əsgərin ruhunu oyadan ilahi qüvvə idi. O, hər bir şəhidlə ölür, hər bir şəhidlə zirvəyə yüksəlirdi. Babək yenilməzliyi vardı onun halında.

### Dağıdılmış bir ölkədə yenilməz ordu yaratdı Atatürk

"Türkü yox etmək" niyyəti hökm sürürdü Batı dünyasında. "Türkün yurdunu dağıtmaq, daşını daş üstə qoymamaq" – tələbi vardı zamanın gedişində. Belə bir ortamda ordu yaratmaq böyük qüvvə, dönməz inam, tükənməz sevgi istəyirdi qurucu insandan. Yalnız üstünləşən İnsanın gücü çata bilərdi buna.

### Atatürkçülük Qurtarıcı Olaydır

Qurtarıcı – ölümə sürüklənmiş, sanki yox olmasına buyruq verilmiş toplumu qaldırmaq, dirçəltmək anlamı daşıyır. Qurtarıcı var etdiyini yaşatmaq, ölümsüz etmək yönlü olayıdır.

**Atatürk Atalıq, Böyüklük olayıdır**

Türk Dünyasında Atalıq peyğəmbərlikdən üstün Ruhani İdrak olayıdır.

Atatürk – Atalıq olayının anlamına yetmişdi. O, Osmanlı millətsizliyi içindən türkü gələnəkli bir millət durumuna gətirib yaşatdı, böyütdü və gələcəkli elədi.

Atatürkə Atalıq açısından baxdıqda onun böyük ləyaqəti görünür. Ona bu ölçüylə baxmaq hər bir türkün ləyaqətidir.

**Atatürk İnamçıdır**

Atatürkün inamı – türkü var eləyən gələcəyə bağlıdır. Atatürk, bizim anlayışımızla Mütləqçidir. Mütləqçilik ali İnam olmaqla, türk İnsançılığının yönünü bəlli edir. Millətindən asılı olmayaraq, hər bir fərd içində Mütləq gəzdirir. Mütləqçilik bəşəriliyi təsdiq edən ölçüdür. Əslində Atatürkün mütləqçiliyi onun insançılığından irəli gəlir. Millətini hədsiz dərəcədə sevən insan – millətində fərdi görür və onda İnsanlıq deyilən Mütləqi sevir – Mütləq həqiqəti sevir. Atatürk Mütləq həqiqətin insanda təcəssüm etdiyinə inanır. Əks halda o, millətini ölçüyə gəlməz sevgiylə sevə bilməzdi və dış qüvvələrin ölümsaçan azman zoruna  qarşı dünyanı sarsıdan bir inadla vuruşa bilməzdi.

**Atatürkün Ulusal – Özgürlük savaşı dünyaya gərək olan olaydır**

Burada türk xalqının öz torpaqlarını azad edib, ona yiyə durmaq, ulusal şüuru dirçəltməkistəyi vardı. Çünki ulusun düşüncə yönü dəyişmədən – azad olmuş torpaqlarda xalqı yenidən qurmaq mümkün deyildi.

Hürufilər insanı dini buxovlardan ayırır, onu mənaca Allaha bərabər tuturdular. Türk təfəkkürü öz inkişafını mifik bir varlığa səcdə yörəsində məhdudlaşdırmır, o, Türk düşüncə yönünü insanlıq, dünyalıq, həyatlıq anlamında əbədiləşdirir. Atatürk buna yetmək üçün vuruşurdu.

**Atatürkün İdeologiyası**

Atatürkün hər addımı idraki yöndə atılırdı. Atatürk təkcə, düzgün yolun nə olduğunu özü üçün aydınlaşdırmışdı. O, həqiqəti dərk etmiş, türkün var olmaq imkanını bu həqiqətə dayanaraq bəlli edirdi. Bu – onun yaratdığı ideoloji yön idi. Atatürk əməl adamı idi. Ağlında daşıdığı ideyaları həyata keçirə bilən mübariz idi. Böyük əməllər ulusu qurtaran ideologiyaya sahib olduqda həyata keçir. Bugün Türk Cümhuriyyətinin varlığı buna sübutdur!

**Atatürk böyük xadimdir**

Atatürk Türkiyəni Beynəlxalq birliklərə, Batı yönümlü bir ölkə kimi tanıdırdı. Əslində isə o, Türk Cümhuriyyətini türk özünəməxsusluğu səviyyəsində dirçələrək yaşatmaq diləyində idi.

"Atatürk gerçəkliyi ötə bildi. Atatürk qərbçiliklə elə davrandı ki, millətçilik qərbçiliyə üstün gəldi" (Asif Ata. "Uluyurd aqibəti – Bütöv Azərbaycan", Adiloğlu – 2007-il. səh.24).

Dinin insan təfəkküründən silinməsi mümkünsüz göründüyü üçün o vaxt (elə indi də) heç bir ideoloq və ya siyasətçi bu məsələyə toxunmurdu. Ancaq o da faktdır ki, dini təfəkkürün insan idrakına, özəllikcə milli idraka dağıdıcı etkisindən qurtulmayınca heç bir milli qalxınmadan söz gedə bilməz.

Atatürk bu səbəbdən dini baxışı türk xalqının ictimai həyatından uzaqlaşdırmaq yolunda misilsiz işlər gördü. Əlbəttə, bu məsələ çox çətin, çox incəlik tələb edən, eyni zamanda həll olunmalı məsələ idi. Atatürkün böyüklüyü də bunu bacarmasında idi. Nə edəsən ki, "O vaxt türkün İnam Atası – Asif Atası, Mütləqə İnam Dünyabaxışı yaranmamışdı. Yoxsa əminliklə demək olar ki, Atatürk bu baxışı Türkiyə Cümhuriyyətində qəbul elətdirərdi" (Soylu Atalı).

**Atatürk diktatorluğu**

Cümhuriyyət elan olunmuşdu. Ancaq elan olunmaqla əsil cümhuriyyətin yaranması arasındakı fərqi "savaş qəhrəmanları" anlaya bilmirdilər. Silahlı savaş qurtarmışdı, döyüşdə göstərdikləri hünərin qarşılığı olaraq bir sıra adamlar dövlətdə təmsil olmaq və səlahiyyət-

lər tələb edirdilər. Onlar ölkə başçısının səlahiyyətlərini məhdudlaşdırmağa çalışan müxalif partiya yaratmağa çalışırdılar. Müxalif cəbhənin varlığı hamıya anlatdı ki, nə qısa müddətdə cəhalətdən qurtula bilməyən xalq, nə də ölkənin düşdüyü durumdan baş açmayan millət vəkilləri bir çox tələblərə hazır deyillər. Müxalifətin mövcudluğu isə əldə edilmiş uğurların məhvinə gətirib çıxarardı. Türkiyə o qədər zəifləmişdi ki, eyni vaxtda bir neçə yöndə yol gedə bilməzdi. Demokratiya o ölkədə bərqərar ola bilər ki, onun xalqı artıq millətçilik mərhələsini keçmiş olsun, ölkə möhkəm və inkişaf etmiş olsun. Demokratiya Türkiyəyə tərs etki göstərir, xalqı daha da parçalayırdı.

Belə bir durumda qəhrəmanlıq görəvlərini bitmiş hesab edən "savaş qəhrəmanları" vicdan və ləyaqət borcunu ödəməli və heç bir umacaq ortaya qoymadan Atatürklə birlikdə Cümhuriyyət qurmalı, ya da Atatürkə quruculuq görəvini başa vurmaqda mane olmamalıydılar.

Onlar isə... müxalifətə keçdilər. Atatürk "türkün var olması"na əngəl saydığı müxalifətə qarşı açıq savaşa başladı. Buna diktatura demək olarsa, Atatürk diktatordur.

Bir yandan Türkiyənin sınırları boyu onu parçalamağa hazır dış düşmənlər, başqa yandan iç ondan da təhlükəli, yüzillərlə türk xalqını millətsizləşdirən din mənsublarının güclü ordusu...

Atatürk tələsirdi, vaxt türkün xeyrinə işləmirdi. Türk xalqının qurtulmasına ayrılmış macalın məhdudluğu Atatürkü rahatsız edirdi. O, Avropanın 400 ildə keçdiyi inkişaf yolunu kiçik zaman kəsiyində keçməliydi. Tarix bunun üçün 40 il vaxt ayırmışdı, bunun da 20 ili artıq Gənc Türklərin inqilabına sərf olunmuşdu.

Cəhaləti, xurafatı öz yaşam tərzinə çevirmiş toplumdan tez bir zamanda çağdaş dünyəvi Cümhuriyyət yaratmaq Atatürkdən Peyğəmbər təfəkkürü, qəhrəman hünəri tələb edirdi. Atatürk də ona görə Atatürkdür ki, bunu bacardı.

Xalqını sevmək, onun gələcəyinə həyatını həsr etmək diktatorluqdursa, o halda, Atatürk diktatordur.

Onun “Diktatorluğu” xalqına ölçüyəgəlməz sevgisinin hökmüydü. Xalqın bütün varlığı, taleyi bu hökmdə birikmişdi. Bugün 85 yaşını doldurmuş qabaqcıl ölkələr sırasındakı, BMT-nin Güvənlik qurumundakı Türkiyə Cümhuriyyəti buna danılmaz sübutdur.

**Atatürk Fenomeni**

Atatürkün Qurtarıcılıq olayı Batı siyasətində belə danıla bilmədi və bu hünər “Atatürk Fenomeni” adlandırıldı. Dünya olaylarını araşdıran çoxsaylı institutlara Atatürk şəxsiyyəti araşdırılmalı birinci dərəcəli olay kimi tanıdıldı (təqdim olundu.) Batı Atatürk üstünlüyünün iki önəmli xəttini aydınlaşdırdı. Birincisi, o vaxtın mütəfəkkir ideoloqlarından (Batı mədəniyyətini, İslam ümmətini qəbul etməkdə bulunan) fərqli olaraq, Atatürk ölkənin inkişafını ancaq türkçülükdə – milli mədəniyyətin maneəsiz inkişafına yetməkdə görürdü. İkincisi, insanları orta çağ cəhaləti səviyyəsində saxlayan dini düşüncəni, milli təfəkkürün inkişafına mane olan cəhət kimi, arxa plana atmağa çalışırdı. Odur ki, Batı Türkiyədə həm batıçılığı gücləndirmək, həm də İslam dinini bərpa etmək yönündə siyasət qurdu. Bu, Türkiyəni Osmanlı təfəkkürünə qayrtarmaq siyasətidir. Bu gün Batıçılığa və dinə loyal münasibəti sərgiləyən çox saylı türk alimləri var. Atatürk Mərkəzləri də əsasən bu yöndə çalışırlar, təəssüf ki!

Atatürk haqqında cild-cild kitablar çap olunur. Ancaq Atatürkün türklüyün qalxınmasına bağlı örnəkləri bu kitablarda, yazılarda öz əksini tapmır, ən çox öygü xarakterli səviyyədə yazılarla rastlaşmaq olur. Atatürk dühası öz həqiqi araşdırıcısını axtarır.

**Atamız Var olsun!**

## Türkçülük yadlığı yenməlidir

Bu gün toplumda Böyük Türk Dünyasının yaranma ehtimalını Türkiyənin bənzərsiz rolu ilə bağlayan fikir formalaşıb. Bu səbəbdən Türkiyə Türk Birliyinə qarşı çalışan qüvvələr tərəfindən çeşidli hücumlara uğrayır.

Tarix boyu yüz iyirmidən artıq dövlət qurmuş, böyük xaqanlar vermiş, bir çox Avropa ölkələrini də öz etkisi altına alaraq böyük imperiyalar qurmuş türkə “yeni dünya ağalarının” münasibəti birmənalıdır – qorxu üzərində qurulan qisasçılıq.

Bu gün dünyaya Batı ağalıq edir. Dünya xalqları üzərində bu ağalıq sabah başqa bir qüvvənin Batı üzərində ağalığını yaradacaq. Çünki “zor zoru məhv etmir, yeni zor yaradır” (Soylu Atalı). Ağalıq – zordur, şərdir, – şərin üstümüzə yeriməsidir. Dünyanın nizamını qurmaq isə siyasətin yox, Ruhaniyyatın işidir. Yəni şəri şərlə deyil, şəri xeyirlə, ruhaniyyatla məhv etmək mümkündür. Bu gün Şəri yenmək Asif Atanın Mütləqə İnam Ruhaniyyatına yiyələnməklə mümkündür.  Bizə görə gerçək olan həqiqət budur.

Bu günlərdə Asif Ata Ocağının Evladı Göylü Atalının Türkiyəyə – dünyanın marağını özünə çəkən İstanbula səfəri gerçəkləşdi. Bu səfər Mütləqə İnam Dünyabaxışının Türkiyədə, az bir etki ilə olsa da, yayılması deməkdir.

Göylünün Türkiyə səfəri ilə bağlı Mütləqə İnam Ocağına verdiyi hesabatı dinlədikcə, mən həmişə arzusunda olduğum, belə bir səfərin sanki iştirakçısına çevrilirdim. Bu söhbətləri dinlədikcə həm sevinirdim, həm də hiddətlənirdim. Çünki burada elə məqamlar vardı ki, içimin təlaşına, ruhumun çırpıntılarına səbəb olurdu. Neçə yüzillərdir ki, bir-birindən ayrı düşmüş və müxtəlif ideoloji etkilərə uğramış bir millətin böyük birliyə çatmaq istəyi haqqında düşünürdüm. Türkün türkdən ayrılması – canın qəlbdən ayrılması kimi ağrılı, vücudun kökdən, ruhun  bədəndən ayrı düşməsi kimi görünür mənə. Görəsən bir olmanı, bir araya gəlməni labüd edən qüvvə nə olmalıdır? Türkün birliyinə hansı əməllərimizlə, hansı qüdrətimizlə, hansı ülvi baxışımızla yetməli olacağıq?! Bu yolda məhrumiyyətlər,

imtinalar qarşısında addımımızı geri qoymayacağıq ki?! Bu yolda fərdi özünüyaratma, ümumi xalqyaratma əməlinə gücümüz yetəcəkmi?

Göylü danışır, mən isə öz duyğularımdan ayrıla bilmirdim.

Bununla belə kədərli yaşantılarımızın içindən bir sevinc duyğusu da sızırdı halıma. Bu, mümkünsüz görünəni mümkün edən işıq – mənim duyğularımı aliləşdirən Mütləqə İnam İşığıdır, – Mütləqə İnam Ocağının yaşadığı, yaşatdığı Ruhaniyyat işığı. "İnsan daxilində Mütləq gəzdirən, Mühitdən, Şəraitdən üstün olan ruhani varlıqdır" – deyir Asif Ata. Ölümlü dünyamızı ölümsüz edən də bu həqiqətdir. Türk – insanı insan edən İnama tapınacaqdır.

Göylünün Türkiyə səfərinin məramı Mütləqə İnam Ocağının bu həqiqətini doğmalarımızla canlı ünsiyyətdə paylaşmaq idi. Biz Ocaq olaraq Asif Atanın Mütləqə İnam Dünyabaxışını türk ölkələrində, ilk öncə də Türkiyədə tanıtmaq yönündə addımlar atırıq. Bu addımların səsi Almaniyada, İranda da eşidilməkdədir.

Türkiyə ilə canlı bağlantını Göylü yaratdı. O, kiçik zaman kəsiyində çox sayda görüşlər keçirdi, müxtəlif baxışlı insanlarla ünsiyyət yaratdı. Göylü Türkiyə səfəri çərçivəsində İstanbul universitetində, "Cümhuriyyət" qəzeti redaksiyasında, Türk Ocağında (Göyalp T.O.) müxtəlif yönlü türk ülkü ocaqlarında oldu, söhbətlər apardı, bizimlə birbaşa, ya da internet araçılığıyla (vasitəsiylə) bağlantı quran ayrı-ayrı insanlarla görüşdü. Apardığı çoxsaylı ədəbiyyatları payladı.

Göylünü qane edən bir məsələ, türkçülüyə münasibətin canlı olmasını izləməsidir. Yəni türkçülüyün məzmunu hansı səviyyədə olsa da, bu anlayışa münasibət aktivdir. Azərbaycanda bu məsələylə bağlı aşılmalı olan maneələr çoxdur. Türkiyə bu qonuda ümidverici görünür. Ancaq ünsiyyət dərinləşdikcə türk qürurunun çox da möhkəm olmayan zəmin üzərində durduğu bəlli olur. Göylünü də türkçülüyün məzmunca yetkinsiz səviyyədə olması etkiləndirmişdi.

"Dərk olunmamış türkçülük, dərk olunmamış millətçilik" (Soylu Atalı) ideoloji boşluğun olmasından soraq verir. Türkiyədə bu boşluğu müxtəlif dini təriqətlərlə, əsasən də "nurçuluq"la doldururlar.

Xilafətin çökdürülməsi dönəmində güclü maliyyə ilə təmin olunan "nurçuluq" Batının siyasi araşdırmalar mərkəzinin etibarlı və

bahalı projesi sayılır. “Nurçuluq” təriqətinin hədəfləri çoxşaxəli olsa da, strateji məqsədi birdir: türkü diz çökdürmək, Türkiyə dövləti içində kürd bölücülüyünə geniş meydan açmaq, Türkiyəni parçalamaq və böyük güclərin istəyiylə yönləndirilən duruma gətirmək. Hər bir dini təriqət kimi “nurçuluq” da qurtarıcı adı ilə insanların şüuruna yeridilir. Türk qəlbi inanc məsələsinə münasibətdə aşiqlik dərəcəsinə qədər həssas və duyğuludur. Çünki inanc alilik, ucalıq, saflıq ifadə edir. Türkün bu keyfiyyətlərindən onun özünə qarşı qullanılır. Bəs inanc adı arxasından insanlara siyasi ideologiya sırınırsa, onda necə olsun? Ruhaniyyatsız “inanc” insanları siyasətin qurbanına çevirməklə manqurt etməzmi? Ağaların canlı alətinə, ruhsuz quluna çevrilmiş insan öz insani, etnik, ruhani keyfiyyətlərini itirdikdən sonra müti bir varlıq kimi necə insani yaşaya bilər?! Ən düşündürücü cəhət budur ki, insan mənasız ömrünü anlamır, antiinsani həyat tərzinin fərqində olmur. O dərəcədə zahiri yaşamına aludə olur ki, içinin ruhani çağırışını eşitmir, ruhçuluğa qarşı ziddiyyətli ömür yaşayır. Hakim mühitin törəməsi kimi toplum bu fərqi örtbasdır edir.

“Dünyaya mənanın gözüylə baxmasan, Dünyadakı mənasızlıq sənə mənalı görünər” – deyir Asif Ata. Mütləqə İnam Ocağının məqsədi insana ruhaniyyat verməkdir. Türk öz simasını, ruhunu qorumalıdır, mahiyyətinə uyğun yaşamalıdır.

Göylü Asif Atanın Mütləqə İnam Baxışını Türkiyənin bəlli ünvanlarında izhar elədi.

Göylü olduğu ünvanlarda insanları inandırmağa çalışıb ki, əsil yaşam toplumçuluqdan üstün yaşamaqdadır, mühitdən, zamandan üstün olmaqdır. Məhz o halda millətçilik, vətən duyğusu dərk olunur.

Göylünün təəssüflə vurğuladığı bir məsələ Türkiyədəkilərin çoxluq etibarilə Azərbaycanı olduğu kimi (tarixi mahiyyəti baxımından) görə bilməməsidir. Bu sorun Azərbaycanın özündə də yaşanır. Güney Azərbaycan Türkiyəlilərin görümündə “Bütöv Azərbaycan” kontekstində dərk olunmur. Azərbaycanla Türkiyə arasında 1991-ci ildən başlamış, bu günə qədər davam edən davamlı bağlantılar Azərbaycanı Türkiyəyə gərəyincə tanıda bilməyib. Bu, nə dövlət, nə müxalifət, nə qeyri-hökumət təşkilatları, nə də əli qələm tutan, dili söz deyən şəxslərin təmsil etdiyi qurumlar səviyyəsində baş vermə-

yib. Soylu Atalının ifadəsiylə desək: ***“Azərbaycan Türk Dünyasının Birliyinin qırıldığı nöqtədir. Türk Birliyi qırıldığı yerindən başlanğıc götürməlidir”.***

Göylü Azərbaycanı torpaqlarının 20%-ni itirmiş zəif, kiçik bir ölkə kimi deyil, Türkün, Şərqin ruhani mahiyyətini özündə ifadə edən bir Türk Ölkəsi kimi tanıdıb (təqdim eləyib). Bu tanıtma Göylünün görüşlərinin etkisini önəmli dərəcədə artırıbdır. Asif Ata Baxışının, Türkün milli-mənəvi dəyərlərinin davamı və zirvəsi kimi, Azərbaycanda yaranmasının təsadüf olmadığını Göylü hər çıxışında vurğulayıb. Əlbəttə, bu gün “Azərbaycan mahiyyətcə Türk Dünyasının ruhani ortasıdır (mərkəzidir)” fikrinə Türkiyəli insanlarımızı birdən-birə inandırmaq çətin məsələdir. Çünki ortada olan fakt hələ ki, geniş bilinməyib.

Milli-mənəvi dəyərlərimizi tanıtmaq məqsədiylə Göylü onlara əzəli peyğəmbərimiz Zərdüştdən tutmuş Asif Ata peyğəmbərliyinə qədər olan dövrdə yaranmış dəyərlərdən: – Dədə Qorqud böyüklüyündən, Babəkin özgürlük aşiqliyinin qutsal anlamından, Nəimi-Nəsimi birliyi ilə göylərə ucalmış Ənəlhəqliyimizdən, Aşiqliyimizin Füzuli yanğısından, Muğamda Mütləqə qovuşmaq məqamından, Türk Tanrıçılığının sazda göyləşməsindən bilgilər veribdir. Görüşlərdə vurğulanıb ki, Azərbaycanın mənəvi dəyərləri Azərbaycan coğrafiyasında yaransa da, bütövlükdə türk ruhunun məhsuludur. Eyni zamanda Göylü bəyan edib ki, Asif Atanın yaratdığı Dünyabaxış hər bir türkü öz varlığına qovuşduracaq qüdrətli bir ruhaniyyat sistemidir.

Göylü danışarkən apardığı söhbətlərin gərgin və inadlı olduğunu anlayırdım. Çünki mən Göylünün cəsarətinə, Amal yolunda ardıcıl, qətiyyətli döyüşkənliyinə bələdəm. Əlbəttə, İnamın təsdiqi bir günün işi deyil. Bunumla belə, Göylü İstanbulun bəlli çevrələrində Ocaq halı yarada bildi.

Göylünün uğuru onun Amala aşiqliyinin – Vətənə, İnsana, Mütləqə sevgisinin ifadəsidir.

**Atamız Var olsun!**

# İnam Evi – İnsanilik Ünvanı

Bu gün biz, Asif Atanın Mütləqə İnam Ocağı olaraq, xalqımıza yeni bir İnam Evi təqdim edirik. Bu təqdimatın mayasında insanın iç hadisəsi durur. Bu hadisəni biz eyni zamanda "İnam Evi Günü" olaraq qeyd edirik. İnam Evi hadisəsi insanın varolma ünvanıdır. "İnam Evi Günü"nü ümumxalq bayramı ruhunda keçirmək çox gərəklidir. Çünki İnsan İnamsız yaşaya bilməz. İnam Evi onun Ruhunun Evidir. Toplumda qeyd olunan bayramların heç birinin insanın mahiyyətinə dəxli yoxdur.

Adam bir canlı olaraq bioloji olsa da, mahiyyətcə Ruhani varlıqdır. Ruhunu yaşatmaq olanağından (imkanından) yararlanmayan adam İnsanlığa yetə bilmir, sonda bioloji varlıq kimi ölüb-gedir. Ruhunu yaşadan insan, insanlıq pilləsinə qalxır, daha doğrusu, ölümsüzləşir.

Biz Ruh dedikdə, onu dini-mifik anlamda təsəvvür etmirik. Bunlar yanlış düşüncədir. Əslində elm də Ruhu izah edə bilmir, Ruhaniyyat elmin obyekti deyil. Ruh – İnam, İdrak, Mənəviyyat, İradə birliyidir. Bu birlik, "İnam Evi" məzmununda yaşayır. Bu baxımdan İnam Evi insanın ruhunu yaşadan ünvandır. İnam Evi ideyasında Ruhanilik, qutsallıq təsdiq olunur. İnam Evi məkan olaraq Ruhaniliyi, qutsallığı həyatımızda gerçəkləşdirir, gerçəkləşdirməlidir. İnam Evində insanlaşma öyrədilir. Bu məkanda ömürlərin Ocaqlaşması – işıqlanması baş tutur.

İnam Evi – Böyük hadisədir. Bura İnam Məktəbi kimi fəaliyyət göstərir. Ocaq ideyası tədris olunur. Nəinki tədris olunur, təsdiq olunur. Kamil İnsan yaranır, təsdiq olunur. "Kamil İnsan" ideyası qədimliyimizdən üzü bəri çox keşməkeşli yollar keçib. Özünü Ali Həyat səviyyəsində tapa bilməyib. Asif Atanın "Mütləqə İnam" təlimi İnsanlaşma təməli üzərində yaranan Dünyabaxışdır. Altı ideyadan oluşan bir-birini tamamlayan İnam sistemidir. Ruhani Cəmiyyət, Ləyaqətli Bəşər ideyasına söykənən Həyat sistemidir.

Kamil İnsan – Özgür İnsan deməkdir. Bu, Demokratiyanın ağılları çaşdıran cəfəng "azadlıq" ideyası deyil. Bu, hər bir insanın

içindəki pislikdən, şərdən azad olması deməkdir. Özgür olmaq içdən təmizlənmək deməkdir. Bunu "xülya" sayanlar yanlış düşünürlər. İnsan özündəki insani mahiyyətinə inanmalıdır. İnanmalıdır ki, içində Mütləq Həqiqət gəzdirir. İnanmalıdır ki, ona çatsın.

Biz İnam Evi yaratdıq ki, bu İnamı insana verək!

İnam Evi ideyasında Odqoruyanlıq özəl Hadisədir, İşıqçılıq anlamındadır, – Türkün Əzəli mahiyyətini əks etdirən İşıqçılıq. Odqoruyanlıq İnam Evinin tərkib hissəsi, atributudur. Mütləqə İnam ideyasının İnam Evində gerçəkləşməsi üçün Odqoruyanın ciddi sorumluluğu var.

İnam Evinin daş-divarını canlandırmaq, ona Məna vermək, Ruh vermək, onu qutsal məkana çevirmək işinə Odqoruyan gündəlik qatılır. Bunlar Odqoruyanın yaşamı ilə bağlıdır. Odqoruyan Dünyanın, Həyatın, İnsanın Əzəli, Əbədi, Kamil, Sonsuz olmasını öz halı kimi izhar etməlidir. Burada Odqoruyanın ruhani hal daşıyıcılığı, ruhunun ölümsüzlüyü bilinməlidir. Başqa sözlə, o, Odqoruyanlıq hadisəsinin timsalına çevrilməli, bu halı elə biçimdə yaşatmalıdır ki, fiziki yoxluğundan sonra da bu hal bilinsin, görünsün, yaşasın. Ocağın odu yörəni işıqlandırmaqda davam etsin.

Odqoruyanlıq işi olmasa, İnam Evi sönük görünər. Biz deyirik İnam Evi məktəbdir. Bu halda Odqoruyan İnamın öyrətməni olmalıdır. Kamil İnsan yaranması üçün ardıcıl səy göstərməlidir.

İnam Evi bu deyilənlərdən qıraqda daş-divardan oluşan ruhsuz məkana bərabərdir; nisbi, maddi, ölümlü. İnam Evini canlandıran, ona Ruh verən – İnsandır, Kamilliyə, Mütləqə can atan, Mütləqləşməyə qadir olan İnsan! İdeyanı Məkan deyil, İnsani Yaşam var edir.

Yaratdığımız İnam Evinin olanaqları genişdir. Biz İnam Evində üç məzmunda Oda təşkil edib qullanacağıq. Birinci Oda "İnam Evinin Tədbirlər Odası"; ikinci Oda "İnam Evinin Ocaq Tarixi Odası" (ona "Ocaq Tarixi Muzeyi" də demək olar); üçüncü Oda isə "İnam Evinin Oxu Odası" adlanır. Bundan sonra Ocaq ideyalarını, işini öyrənmək istəyən "Tarix" və "Oxu" Oda'larından özgür şəkildə yararlana biləcək. Biz maraqlananlara bu ortamı yaradacağıq.

**Atamız Var olsun!**

## Özbaşınalığın təhlükəsi

Hakimiyyət aydını yadların, yadlığın güdazına verə bilir.

İstedadlı yazıçı-publisist, xoşxasiyyətli insan, açıqsözlü aydın Rafiq Tağı evinin qarşısında silahlı basqına uğrayır. Bu hal ölkədə cəsarətli sözün qədir-qiymətinin bilinməməsindən soraq verir.

Rafiq Tağıya qarşı təşkil olunmuş zorakılıq hadisəsi onun yazıçılıq fəaliyyətinə qarşı olmaqla bərabər, həm də ictimai fikrin inkişafını əngəlləyən əməldir.

Bu gün Azərbaycan mühitində aydın olmaq "başı bəlalı olmaq" anlamı daşıyır. Nə vaxta qədər cəsarətli yazarlar yad qüvvələrin ayaqları altında tapdalanacaq?!

Mən Rafiq Tağını tələbəlik illərindən tanıyıram. Onun incə qəlbə, intellektual olanaqlara malik olduğunu yaxşı bilirəm. Onun özünəməxsus halı var. O, cəhalətə, geriliyə etiraz edən, köhnəliyə dayanıb inkişafa mane olanları ifşa edən yazıçıdır.

Dövlət bu cür insanlarını qoruya bilmir, qorumur. Düzdür, Dövlətimiz müstəqildir. Hakimiyyət "Özgür fikir", "Özgür düşüncə" sunan kimi görünür. Hakimiyyət özgür düşüncəli aydınlara həmişə zorakılıq etməsə də, ölkəmizin içinə gətirilən yadlıqlara mühit olur. Bu hal aydınlara münasibətdə 37-ci ildəki hadisələrlə tutuşdurula oluna bilər.

Bu cür zorakılıqlar qarşılığında hakimiyyətin gücsüz və qətiyyətsiz addımları onu xalqın düşüncəsində yad qüvvələrin buyruqçusu kimi göstərir.

Azərbaycan dövləti xalqına, xalqının dəyərli insanlarına layiq Dövlət ola bilər, olmalıdır. Aydın dövlətin simasıdır. Aydını başıqapazlı, gözükölgəli, ələbaxan duruma salmaq yox, olanaqlarını xalqına vermək üçün ona ortam yaratmaq gərəkdir. Dövlətin qutsal görəvlərindən biri də budur.

Bu gün aydınlara edilən basqılar hakimiyyətin onlara yiyə durmamasından irəli gəlir. Konkret desək, əgər 2006-cı ildə bir köşə yazısına görə İran molla rejiminin fitvasına boyun əyərək, Azərbaycan Məhkəməsi Rafiq Tağını 3 il müddətə dəmir barmaqlıqlar

arxasına salmaq qərarı verməsəydi, bu haqsızlıqdan həvəslənən qüvvələr Rafiq Tağıya qarşı qəsdini həyata keçirməyə cürət etməzdi.

Hakimiyyətin başı üstündən onun vətəndaşına (aydınına) silahlı basqın etmək, dövləti və xalqı təhdid etməkdir. Belə təhdidlərə zamanında cavab verilməsə, dövlət çökə bilər. Dövlət öz insanına sahib durmalıdır ki, yaşasın, var olsun!

## Olmalının təsdiqi

Bu günlərdə Asif Atanın Mütləqə İnam Ocağı İnam yönündən tarixi önəm daşıyan bir Hadisəni təsdiq etdi. Belə ki, son vaxtlar Ocaq tədbirlərini keçirdiyimiz ünvana İnam Evi (Amal Evi) statusunu tanıdı. Bura qədər də Ocaq yaradıcılığı ilə bağlı əməllərimiz əsasən bu ünvanda gerçəkləşmiş, çoxsaylı görüşlər keçirilmişdir. Biz bu ünvanı "İnam Evi" adlandırana qədər də buraya üz tutan insanlar ünvanımıza "Ocaq" deyiblər.

Mən bu ünvanın sahibi kimi buranı "İnam Evi" eləmək haqqında düşünməmişdim. Ancaq ünvan özü ada layiq bir biçim almışdır. Doğrudur, düşünürdüm ki, Ocaq bu ünvanda fəaliyyət göstərir, demək, bura "İnam Evi"dir. Sadəcə olaraq, ünvanı öz adı ilə adlandırmaq qalmışdır. Belə bir tarixi məqamı ağlımdan qaçırdığımı özümə bağışlamıram. Nəhayət, bu vaxta qədər buraxdığım yanlışımı düzəltmək qərarına gəldim.

Mənim israr etdiyim təklifdən sonra Ocaq Yükümlüsü Soylu Atalı bu ideyanı gerçəkləşdirən Ruhani Sənəd yazdı. Hesab edirəm ki, Mütləqə İnam Ocağının yaşamını, qutsallığını ifadə etdiyimiz ünvanı İnam Evi olaraq təsdiq etmək zərurətdən yaranan bir Tələbdir.

Bu olay Ocaq tarixində yeni bir aşamadır. Bu, eyni zamanda mənim həyatımda yeni aşamadır. "İnam Evi"nin Odqoruyanı sorumluluğunu yaşamaqla özümü bəxtiyar sayıram.

Odqoruyan sorumluluğu böyükdür, ancaq düşünürəm ki, bu, mənim aqibətimdir. Odqoruyanlıq Ev'də İnam halının, tələbinin yaşamasını təmin etmək, təşkil etmək, Qutsallığı qorumaq anlamındadır. Odqoruyan həm də İnam öyrətmənidir.

Odqoruyanlıq İşıqçılığı Sabaha çatdırmaqdır. Ortama, mühitə işıq yaymaqdır.

İnam Evi özündə ayrı-ayrı Oda'ları birləşdirir. Burada Ocağın "Tədbirlər Oda"sı, İnam Evinin "Oxu Odası" və İnam Evinin "Ocaq Tarixi Odası" var. Bu Başlanğıcın ideya davamı sonra da

işlənəcəkdir. İçim fərəhlə dolub. Böyük niyyətlərlə, böyük əməllərlə yaşamaq səadətdir.

Biz bu gün Olmalını həyata keçirdik.

**Atamız Var olsun!**

## İnamımızı öyrənənlər

Azərbaycanın müxtəlif universitetlərində təhsil alan bir qrup Türkiyəli gənc Türkün Ruhaniyyat Ocağı haqqında bilgi əldə etmək məqsədiylə Ocağa üz tutmuşlar. Onlar bilgini Asif Ata İşinin yetkin bilicisi, Mütləqə İnam Ocağının Yükümlüsü Soylu Atalının dilindən eşitmək istədiklərini söylədilər. Biz də öz yanımızdan belə bir görüşü təşkil etdik. Görüş çox uğurlu və məzmunlu keçdi. Bu, həm də "Doğmalaşma günü" kimi zənginləşdi.

Öncələr ayda bir dəfə olmaqla, ildə 12 "Doğmalaşma günü" keçirirdik. Tədbirlərin sıx olması fiziki olanaqlarımızı məhdudlaşdırır deyə, əlavə tədbirlərin sayını azaltdıq və fərdi görüşlərə, səfərlərə üstünlük verdik. Ocağın xalqlaşma əməli bizim sorumluluğumuzu, işimizi artırır. Ancaq sonucun uğurları adamda qürur hissi yaradır və fərəh doğurur. Soylunun ruhani qüdrəti və tükənməz eşqi hesabına biz soydaşlarımıza daha yaxın ola bilirik və ünsiyyətdə olduğumuz fərdlərin özünü görmək olanağı da geniş olur.

Ümumən görüşlərin məqsədi Mütləqə İnam yönündən insanları öz həqiqətiylə üz-üzə qoymaqdır; onları milli-insani ruhunu yaratmağa yönəltməkdir; onlara özümlüyünün yönünü – insani, milli, bəşəri duyğularını göstərmək və Amal ruhunda düşündürməkdir. Doğmalaşmaq o deməkdir ki, insan onda olan yadlığa, özgəçiliyə ruhunun gözüylə baxa bilsin, özündəki şəri görməyi bacarsın, xeyirin gücünə inamını artıra bilsin.

Özüylə doğmalaşan şəxs Ruhani tələbləriylə gerçək həyatın tələbləri arasındakı fərqi, uyğunsuzluğu anlayır və görür. İctimai həyatda ziddiyyətli yaşadığının fərqinə varır. Eyni zamanda anlayır ki, həllini tapa bilməyən sorunlar insanın ziddiyyətli halından yaranır.

Bəs nə etməli: – Olduğu kimi qalmaq, ömrünü cismani tələblərlə yaşayıb başa vurmaqmı, yoxsa insani keyfiyyətlərini aşkarlamaq uğrunda özüylə döyüşmək və insani yaşamaqmı?

Asif Atanın yaratdığı Mütləqə İnam Dünyabaxışının mahiyyətini anlamayanlar Ocağı toplumdakı çoxsaylı qurumlardan fərqli görmək istəmirlər. Ancaq bizimlə ünsiyyətdə olanlar hesab edirik ki, Mütləqə

İnam Baxışının toplumüstü olay olduğunun fərqinə varırlar. Dünyada nə baş verirsə versin, Ocaq öz işini görür, görməlidir, – insanların həyatına Mütləqə İnamı gətirməlidir.

Ocaq bugünün hadisəsi deyil. Ocaq bugündə sabahı yaradır. Ocaq Sabahı yaratmaq hadisəsidir. Bu səbəbdən də bizə Sabahı düşünə bilən, sabahlı yaşayan gənclər gərəkdir.

Asif Ata deyirdi ki, Ocağa 15 yaşlı gənc gətirin. 20 ildən sonra o, Kamil bir İnsan – Ruhani Öyrətmən olacaq. Biz, Mütləqə İnam Ocağı olaraq, Yurdumuza səfərlər edir və gənclərimizin ağlında İnam halı yaratmağa çalışırıq.

Türkiyəli gənclərlə keçirdiyimiz görüşlər bu yöndən olan başqa görüşlərdən köklü surətdə fərqlənmir. Ancaq bu görüşdə duyum, özünü anlama daha aydın ifadə olundu. Onu da deyim ki, bundan öncə bizim bu gənclərlə daha iki görüşümüz olmuşdu.

Türkiyəli gənclər insani, milli, mənəvi dəyərləri qiymətləndirə bilir, dini düşüncə tərzinin çatışmazlıqlarını, qüsurlarını da yaxşı anlayırlar. "Xəlqi Birlik" ideyasının nəzəri əsaslarıyla tanış olmasalar da, mənsub olduqları türk millətinin mənəvi keyfiyyətlərini özlərində fəxrlə yaşatdıqlarını bildirirlər. Milli-mənəvi dəyərlərə münasibətlərində maraqlı aydınlıqlar da var: "Türk milləti başqa millətin yaratdığı ideya ilə sintez olunmamalıdır, çünki türkün mahiyyətində yetkin yaradıcılıq və aktiv mübarizlik var" (Soylu Atalı). Gənclər Soylu Atalının bu mövqeyini birmənalı olaraq təsdiq etdilər.

İnanc olmalıdırmı? Sonucda dinə bağlanan inanc olmamalıdır. Bu, birmənalıdır. Bəs nə olmalıdır? Belə sualı cavablandırmaq, təbii ki, çox çətindir və gənclər onun cavabını Soylu Atalıdan alacaqlarını bildirdilər.

Soylu Atalı fikirlərini belə bildirdi: "Biz deyirik, Dünyanın mənası var, ahəngi var. Bu məna, bu ahəng dərk olunmayana qədər Dünya mənasızlıq, ahəngsizlik kimi yalan təmələ söykənəcək. Mənasızlıqdan və ahəngsizlikdən (təməlsizlikdən) insanın mahiyyətinə tərs olan mənəviyyatsız həyat yaranacaq. İnsan yalnız cismani həyat sürməyə məcbur olacaq. Təməlsizlik Dünyanı başı üstə çevirəcək. Bu gün Dünyanın halı budur. Dünya dəyişilməlidir.

Hər bir fərdin ömründə Dünyanın mənası ifadə olunmalıdır. Əks halda, insanın mahiyyətində olan milli-mənəvi dəyərlər insanla birgə torpağa gömülür.

Ədalətsizliyi, Mənəviyyatsızlığı yaradan səbəb nədir, onların mayasında nə durur? Niyə Şər bu dərəcədə yenilməz görünür?! Çünki insan Yaranış məsələsinə, İnam məsələsinə – İnsanın, Dünyanın, Həyatın mənasına, onu dərketmə məsələsinə yalanla yanaşır, yüzillərdir bu yalandan əl çəkmir. Elə bil insan "yalana inam" sunub özünə.

Həyat yaşanılır, ancaq nə üçünsə Həyatilik dərk olunmur. İnsan var, insanın mənası bilinmir. İnsanilik dərk olunmayıb bu günə qədər. "Dünyanın mənası açılmalıdır!" kimi bəşəri bir tələb gerçəkləşməlidir.

Din Allahı substansiya sayır və onun dərkinə yasaq qoyur. Bu yasağı rədd etmək gərəkdir. Elm dinin əsassızlığını sübut edir, ancaq Mənanı aça bilmir. Bunu ancaq Ruhaniyyat edə bilər, yəni Mütləqə İnam.

Dünyanın Mənasını izah etmək, Həqiqəti üzə çıxarmaq, insanı mənaya qovuşdurmaq əslində İnam fəlsəfəsinin işidir. Filosoflar Həqiqət axtarışında özlərini dərələrə-dağlara çox saldılar. Mütləqə yaxın olan məqamları da oldu. Ancaq "Dünya özü Mütləqdir!" deyən olmadı. Bunu yalnız Asif Ata dedi.

Asif Atanın Baxışı Dünyanın Mahiyyətinə söykənir. Onun Mütləqi budur. Asif Atanın Mütləqi eyni zamanda türkün mahiyyətindən qaynaqlanır. Türkün inamı Mütləq olub, türkün inamı uca olub, sonsuzluğa yönəlib. Ancaq Mütləqə İnamı olmayıb. İndi o var, indi onu qəbul etmək gərəkdir".

Soylu Atalı fikirlərini bütöv, hərtərəfli əsaslandırdı. Ocaq Amalı ilə bağlı bütün suallara cavab verdi.

Sonra Türkiyəli gənclərə Ocaq ədəbiyyatları bağışladı.

**Atamız Var olsun!**

## Yol Sevdalısı

Nurtəkin bütün ömrünü Asif Atanın Mütləqə İnam Yoluna həsr etdi. Ocağa gəldiyində 20 yaşı olan gənc – arı, duru, məsum bir qız. Nə idi bu qızı Ata Yoluna çəkən? Gəncliyinin coşğun çağında, sevib-sevilmək məqamında, duyğularının hərarətli bir anında Nurtəkin İnam Ocağına gəldi. Bu gəlişin təməli nədir? Nurtəkin özünə düz yol seçmişdi. Bu, təsadüf idi, yoxsa zərurət, bilmirəm. İstənilən halda bu seçim Nurtəkinin xoşbəxtliyi idi. Onlarla başqa gənclər də bu yola düşmüşdülər, ancaq gedə bilmədilər. Nurtəkin Yolu gedə bilən təklərdən oldu.

Nurtəkində Mütləqi duymaq həssaslığı var. Həqiqəti anlamaq, Gözəlliyi hiss etmək aşılanmışdı ona elə bil. Xislətində Ucalığa heyranlıq, Böyüklüyə Səcdə halı var. Bu duyğu Ataya, Amal Yoluna aşiqlik yaratdı onda. Atalığa, Amala aşiqlik halı bu vaxta qədər dəyişmədi. Bütövləşdi, təkcə Şəxslərdən biri oldu – İçindəki Mütləqi arayan, Amalını yaşam tərzinə çevirən təkcələrdən.

İnsan Məna ilə yaşadıqda həyat gözəldir. Həyat Mütləqliyi ilə gözəldir. Həyatı Mütləqə İnamla yaşamaq isə Xoşbəxtlikdir!

Mənasız, Mütləqsiz həyat yaşayanlar Gözəlliyi başqa yerdə axtarmalı olurlar. Təzahürlərlə, görüntülərlə, maddi yaşamın firavanlığı ilə yetərlənirlər. Firavan yaşayanların hər şeyi olur, xoşbəxtlikdən başqa. Çünki xoşbəxtlik, gözəllik Ruhani keyfiyyətdir. Gözəl yaşamaq İnsanın mənəvi halıdır, maddi olanağı deyil.

Nurtəkinin xoşbəxtliyi ailə-məişət, cəmiyyət ölçülərindən üstün oldu, insani, bəşəri dəyərlərə uyğun bir səviyyəyə qalxdı. Bu, Təklərə layiq aqibətdir. Bu, sığmazlıq, özgürlük tələbi ilə dolmaqla yanaşı Kamil İnsan səviyyəsinə can atan bir insanın taleyidir. Bu, ali duyğularla yaşamaq deməkdir.

Asif Atanın Mütləqə İnam Yolu Dünyanı dəyişdirmək, insanın haqqını özünə qaytarmaq uğrunda ruhani mübarizədir. Bu tələbin gerçəkləşməsi yüz illərə bərabər olsa da, onun ilkinləri, cəfakeşləri olmalıdır. Mütləqə İnama üz tutmaq sabahla yaşamaq, sabahı bugün yaşamaq səadətidir. Bu seçim təkcə insanlara xas olur...

## Kədər üstə düşüncələr

*Ocaq günsırası ilə 33-cü il, Qürub Ayının 3-də*
*Asif Atanın Mütləqə İnam Ocağı*
*Türk Ruhaniyyatı əsasında yaratdığı*
*"Ölügötürmə Qurallarıʺna uyğun*
*Yas Törəni keçirdi.*
*Törən Nurtəkin və Üstün Atalıların*
*anası Zəhra xanımın ölümü ilə bağlı*
*düzənlənmişdir.*

Asif Ata təliminin ciddiliyi, çətinliyi çox adamı bu yoldan çəkindirir. Yol təklərə qalır.

İnsan insanlığını təsdiq etmək üçün Şərlə döyüşməlidir – Ata təlimi bunu anladır. Hər kəs öz içindəki Şəri döyə bilərsə, Dünya şərdən arınar. İctimai gedişat durular. Bunun üçün özüylədöyüş əməlinə yetmək gərək. Əlbəttə, bu, çox çətin alınır.

Niyə hər bir insanın görməli olduğunu tək-tək insanlar görür ancaq? Niyə Həqiqət Yoluna Nurtəkin kimi təklər düşür, yüzlərlə başqaları düşmür? Bunun səbəbi nədir?

Şübhəsiz bunun cavabını insani, milli, irsi təməldə axtarmaq gərək. İrsi dedikdə bəşəri dəyərlərin nəsillərdən nəsillərə ötürülməsini gözə alıram. Valideynlər özləri də bilmədən bu dəyərləri övladlarına ötürürlər.

Eyni zamanda heç bir valideyn övladının Həqiqət yoluna düşməsini istəmir. Çünki Həqiqətin yükünü daşımaq ağırdır. Heç kəs istəmir ki, balası bu ağırlığın altına girsin. Hələ mən odda yandırılmaqdan, dərisi soyulmaqdan, şaqqalanmaqdan, təhqir və böhtanlara uğramaqdan danışmıram. Ancaq onu bilirəm ki, dünya az sayda həqiqətçilərin hesabına ayaqda durur...

"Dünyanın dərdi təkcə sənəmi qalıb" – deyiblər Asif Ataya onun valideynləri. Soylu Atalını Asif Atadan ayırmaq məqsədiylə anası Cahan xanım özünü yandırmaq həddinə çatıb.

Valideynlərinin uğurlamasını almaq nəsib olmayır Həqiqət yolçularına.

Nurtəkin atası Üzeyir bəyi gənc yaşlarında itirmişdi. Onun bu itkiylə bağlı keçirdiyi duyğular haqqında mənim bilgim yoxdur. Ancaq Asif Atanın ölümündən sonra daşıdığı kədər halı mənə bəllidir. Belə bir Kədərin gənc qıza etkisi çox güclü olub. Ömrünü həsr etdiyi Yolun yaradıcısının ölümü Nurtəkində bu Yolun yükünü çəkmək sorumluluğu yaratdı. Kədər Nurtəkini müdrikləşdirdi. Cavan yaşda müdrik bir insana çevirdi.

Bir faktı söyləmək bəs edər ki, Asif Atanın ölümündən sonra fiziki olaraq dağılmış Ocağın yenidən qurulmasında və yaşadılmasında Nurtəkin üç şəxsiyyətdən, üç kişidən biri oldu. Bu, "Nurtəkinin əməyi, hünəri misilsizdir!" deməyə haqq verir. Nurtəkinin yaşamı şəffafdır, göz qabağındadır. O, örnəkdir.

Bütün valideynlər kimi Zəhra xanım da qızları Nurtəkin və Üstünün Ocaqçı olmağına razı deyildi. O vaxtlar, təbii ki, mən Zəhra xanımla tanış deyildim. Mənim Zəhra xanımla tanışlığım son 3-4 ilə təsadüf edir. Zəhra xanım həm zəhmətkeş, həm əzabkeş insan idi. O, əlində, ovcunda böyütdüyü arı, duru qızlarının Həqiqət yoluna düşdüklərinə qarşı cəmiyyətin anlamazlığı ilə döyüşürdü. Çünki Nürtəkinin, Üstünün inadı, qətiyyəti Zəhra xanımı qızlarını Asif Ata Yolundan uzaqlaşdırmaq niyyətindən vaz keçməyə məcbur etmişdi. Üstəlik o, öz analıq uğurlamasını da vermişdi. Bu, yaxşı hal idi.

Zəhra xanım Ocaqçı qızları ilə ruhani ünsiyyətdə çox olurdu. Ana ilə qızlar arasında ruhani anlaşma səviyyəsi yaranmışdı. Hətta Zəhra xanım Ocaq ədəbiyyatlarını oxuyur, qızlarının Ocaqçılığı ilə maraqlanırdı. İndi birdən-birə belə ananı itirməyin Nurtəkinə, Üstünə hansı halı yaşatdığını mən içdən dərk edirəm, ağrıyıram. Zəhra xanım Ocağa doğma idi öz halı ilə. Ona görə bu xanımın ölümü Ocağın da itkisidir.

Amaldaşlarım Nurtəkin və Üstün! Mən inanıram ki, bu Kədər sizi əyməyəcək, tərsinə, güc alacaqsınız. Kədəriniz Ocaqda ali Fərəhə çevriləcək.

Zəhra xanımın ruhu hər zaman sizin Ocaqçılıq ləyaqətinizdə yaşayacaq. Bu cür qızları olan ananın ruhu onlarda yaşayacaq. Yurdun, Ulusun var olsun, Zəhra xanım! Başın sağ olsun, Nurtəkin, Üstün, Elürək. Ruhunuz uca olsun!

**Atamız Var olsun!**

## Uğurlarımızın Fərəhi

Bu günlərdə Mütləqə İnam Ocağının Evladları müxtəlif ünvanlarda bir sıra görüşlər keçirmişlər. Belə ki, Günev və Elxas (İbrahim) Aran Qarabağın (Ağcabədi, Beyləqan) rayon və kəndlərinə səfərlər etmiş, Mütləqə İnam yönündən söhbətlər aparmış və çoxsaylı Ocaq ədəbiyyatları yaymışlar. Üstün və Türkel BDU-da gənclərlə söhbətlər aparmış, Ocaq ədəbiyyatını əks etdirən kitablar, buraxılış ("Ruhani Evladlıq" özəl buraxılışı) paylamışlar. Göylü Atalı isə Sumqayıt Dövlət Universitetində, Mədəniyyət Evində gənclərlə ünsiyyətlər qurmuş, ədəbiyyatlar yaymışdır. Bakıda Mütləqə İnam Ocağının Yükümlüsü Soylu Atalı və Ulusəs Atalı gənclərlə, elm və təhsil adamları ilə görüşüb söhbətlər aparmış, kitablar və "Ruhani Evladlıq" özəl buraxılışından nüsxələr hədiyyə etmişlər. Asif Atanın işinə, şəxsiyyətinə sayğı bəsləyən və maraq göstərən insanların çoxsaylı suallarına cavab verilmiş, özləri isə Ocaq tədbirlərinə dəvət edilmişlər. Bundan başqa, İçərişəhərdə (Ocağın Tədbirlər Odasında) Soylu Atalının bir sıra fərdi görüşləri keçirilmişdir. Bu cür görüşlər intensiv xarakter daşıyır. Son günlər Yasin Türksoyun təşəbbüsü və təşkilatçılığı ilə millətsevər aydınların Soylu Atalı ilə görüşləri baş tutmuşdur. Söhbətlərdə Ocaq ideyaları, qaydaları və işləri barədə bilgi verilib, habelə Asif Atanın baxışları təhlil və şərh edilib. İnamın təsir yönləri ilə bağlı söhbətlər ciddi maraq doğurur. Soylu Atalı bu yöndən fikirlərini belə şərh edir: "Asif Atanın ideyaları çoxşaxəlidir və həyatımızın bütün cəhətlərini qapsayır. Bu səbəbdən də Ruhani Dirçəlişin İnsanlaşma ideyası (fərdin özünü yaratma yönü) Müstəqil Vətən, Xəlqi Birlik, Özümlü Şərq ideyaları ilə vəhdətdə götürülməli, bu yöndən dərk olunmalıdır. "Xəlqi Birlik" əslində Quruluş yönüdür – sosializm və kapitalizm Quruluşuna (prinsiplərinə) qarşı qoyulmuşdur. Bu ideyada Asif Ata tərəfindən hətta dövlət quruluşu müəyyən edilmişdir. Eləcə də "Müstəqil Vətən" ideyasında həqiqi müstəqilliyin qoşulları (şərtləri) kimi bağımsız mədəniyyətin, bağımsız iqtisadiyyatın, bağımsız siyasətin formalaşması təklif olunur. Asif Ata sağlığında bu və başqa məsələlərə qarışıb, çoxsaylı yazıları və müsa-

hibələri ilə fikirlərini ortaya qoyurdu. Bu işlər Asif Atanın yüksək şəxsiyyətinin universal olanaqlarının göstəricisi idi. O, ruhani savaşını əsaslı qurmuşdu. Heç bir qıraq ideyalara, meyillərə umud bəsləmirdi, – qıraq çağırışlarla birləşmirdi. Yəni həyatımızın müəyyən hissəsinə Asif Ata etki göstərsin, başqa hissəsinə başqaları təsir etsin kimi düşünmürdü. Əlbəttə, başqalarının yerinə addım atmağı, hər şeyi inhisarına götürməyi də məqsədinə çevirməmişdi. Ancaq bütün yönlərdə ruhani etki göstərə bilmək – öz xəttində böyük dəyişikliklər etmək, başqa xətlərdə isə, vurğuladığımız kimi, ruhani maarifləndirmək birbaşa Asif Atanın işidir. Biz də bacardığımız qədər Asif Atanın işlərini bütün çalarları ilə həyata keçirməyə, davam etdirməyə çalışırıq". Soylu Atalının bu fikirlərindən çıxış edərək deyə bilərik ki, bu yöndə uğurlarımız bəs qədər, habelə olanaqlarımızı gerçəkləşdirməyə gücümüz yetərlidir.

## İnsanilik bayramımız qutlu olsun

İnsan əslində kamil olmalıdır. Bu, insanlığın tələbidir. Toplum isə Kamillərə gülür, onu daşa basır, tonqalda yandırır, dərisini soyur, şaqqalayır. Dünyanın gözəlliyini yaradanlar da, qoruyanlar da şaqqalananlar, dərisi soyulanlar, tonqallarda yandırılanlardır. Dünya bu insanların sayəsində dağılmır, Dünya heç vaxt dağılmayacaq – çünki bu cür insanlar həmişə olacaq.

…Biz Ocaq olaraq insanın təfəkküründə inqilab etmək niyyətindəyik – İnsana, İnsanlığa inam ölçüsü ilə. Bu, Bəşər tarixində yeni addımdır. Ata fikri: "Həyat dəyişir, bu səbəbdən də düşüncə dəyişir – deyirlər. Düşüncənin həyatı dəyişdirdiyini bilmirlər. Düşüncə həyatı dəyişir və həyatı dəyişdikcə özü də dəyişir – demək gərək".

…Kamillikdə inkişaf qurtarmır, başlayır. Burada insan bütövlük üstə inkişaf edir. Bütöv inkişaf edir. Biz Ocaq olaraq, İnsaniliyi Bayram eləməklə insanın bu bütövlük üstə inkişafını təmin edirik və bununla Bəşər tarixinə yeni səhifə yazırıq.

Atanı zirvə sayıram və bu ara (məsafə), ucalıq məni sorumluluğa çağırır... Ata deyir ki, Mütləqi yalnız Ruhani İdrakla dərk etmək olar. Dərk olunan hadisə və dərk edən insan. İnsan dərk etməlidir dünyadakı hadisələri. İnsanın təbiətlə, dünyayla ruhani bağlılıqları var. Elm isə təcrübədən qırağa çıxa bilmir. İdrak ruhaniləşmədiyi üçün dinlərdə yalan yaranır.

...Dünya mahiyyətcə hələ dərk olunmayıb. Elm təbiət hadisələrini kəşf etdikcə şübhələr daha da artır. Mütləqi Allahın ayağına bağlayırlar.

Ata deyir ki, həqiqətin dərki insanla dünya birliyinin dərkidir əslində. Dünyanı dərk edən dünyadakı insaniliyi dərk edir. Ataya qədərki təfəkkür başqa idi. Dünyanı dərk etmək üçün insan dünyadan ayrılmalı olur. Ataya qədər fəlsəfi təfəkkürdə dünyanın mahiyyəti, məna birliyi gözə alınmır. Münasibət insanla dünya arasındakı yadlıq əsasında qurulur. Elm də bu təfəkkür əsasında qurulur.

Ruhani idraka yetməyimin gərəkliyinin mənim üçün nə dərəcədə mühüm olduğunu anlayıram.

Mütləqə İnam Dünyabaxışını özüm üçün aqibət seçmişəm. Ocaq ideal həyatdır. Ocaq mənim yaşamımın normasıdır. Dünyada nə baş verir versin, nəinki məni bu yoldan döndərə bilər, tərsinə, mənə anladar, – bu hadisələr ona görə baş verir ki, ruhani idrak zəifdir. Mənim gerçək həyatı ali həyata yüksəltmək borcum var. Mənim savaşım şərlədir. Mənim savaşım zora uğrayan insan təfəkkürünü bu zorun əlindən almaqdır. Mənim məqsədim şəri yenmək, ədaləti Yer üzündə bərqərar etməkdir.

Biz hər bir tədbirdə carlar yazırıq. Bu carların mahiyyəti də elə "Kim idim, kim oldum?" sualına cavab verir. Məsələn, "Ataya Evlad oldum – Bəşəri anlama yüksəldim" carımız.

"Kim idim, kim oldum?" sualına hər gün cavab verilməlidir. Çünki hər gün insanı yox edən, əzə bilən, məhv edən hadisələr baş verir və insan, doğrudan da, kim oldum tələbiylə o basqılardan çıxa bilər. Mən hər zaman hiss edirdim ki, Ocağı tapmağımla, Ocaq Amalına yetdikcə məndə həyatı anlamaq, bəşəri anlam baxımından çox böyük dəyişikliklər olub. Mən Ocağa qədər dünyaya baxırdım, nəyisə başa düşürdüm, nəyisə başa düşmürdüm. İnsana baxırdım, bəzən dedikləri gözəl görünürdü mənə, bəzən elə cümlələri var ki, qəbul etmirdim. Mən bir insana baxanda fikir söyləyə bilməzdim ki, bu insan nə istəyir, bunun dünyaya baxışı nədir? Ancaq Ocaqdan sonra məndə belə bir şey baş verdi, – məsələn, televizorda bir insan çıxış edəndə başa düşürəm ki, bu adam özü nədir, nə istəyir həyatdan, anlamı nədir? Dünyanı başa düşürmü? Söz deyir, ancaq o dediyi sözü anlamır. Onun dedikləri bir-birini inkar edir. Ziddiyyətli olan insan heç bir söz deyə bilməz.

Bunlar "Kim idim, kim oldum?" söhbətinə gətirib çıxarır. Mən indi anlayıram ki, dünyanın mənası nədir. Bu mənada xoşbəxtəm. İnsanı anlamaq, dünyanı anlamaq xoşbəxtlikdir.

Dünya gündən-günə xaosa düşür. Bu xaosun içində xeyir də var, şər də. Bu xaosun içindən xeyiri nazik bir tel kimi dartıb çıxarmaq, onu önə çəkmək "kim idim, kim oldum" sualına cavab verir. Mən bunu bacarıramsa, həqiqəti yalanın içindən sezib çıxara bilirəmsə,

demək bu, artıq dünyanı, bəşəri anlamağımı göstərir. Mən bunu hiss edirəm. Bu, Ocaq Amalının mənə verdiyi dəyərdir.

***xxx***

Mən neçə illərdir Ocaqçıyam və neçə illərdir ki, Ocaqla bağlıyam. Hər dəfə Ocaq tədbirlərində onu da etiraf etmişəm ki, məndə kəskin biçimdə gərginliklər olub. Ancaq bir məqamı qeyd etmək istəyirəm ki, qarşılaşdığım gərginliklərdən sonra belə bir hal əmələ gəlib: gərginliyim Ocaqdan həyati məsələyə yönəlib elə bil. Bu, məni Ocağın istisindən soyutmayıb. Ocağın istisini içimdə hər an hiss eləyirəm, sadəcə Ocaqda sərbəstliyim daha çox yaranıb, nəinki gərginliyim. Sabitlik daha çox yaranıb. Özümə müəyyən mənada inamım artıb. Mən elə bilirdim ki, gərginlik etkisində Ocağı qəbul edirəm. İndi isə görürəm ki, gərginlik oldu, olmadı, Ocaq mənimlədi. Başıma qar yağır, daş yağır, nə yağır yağsın, Ocağa içəriliyi (dəxli) yoxdur. Mənimlə Ocaq arasında qırılmaz bağlılıq yaranıb.

Mən Ulusəs Atalıyam. Ulusəs adımdır və bu adla çağırılıram. Atalılıq Mahiyyətdir. Biz rica yazırıq, Atalı olmaq üçün. İlk dəfə bunu formal bir şey kimi qəbul elədim. Orda sonuncu cümlələr də mənə formal gəlirdi. İndi bu sözü tam anlayıram. Dünyadakılar Atasızdırlar, yetimdirlər. Biz yetim deyilik, Atalıyıq. Təsəvvür eləyin ki, insan dünyaya gəlir Atasız, yaşayır Atasız, ölür Atasız. Dünyada neçə milyard insan var, bunları yaşayır. Bizim fərqimiz odur ki, biz Atalıyıq. Atalı olmaq nə deməkdir? Atalı olmaq ləyaqətli olmaq deməkdir. Vicdanlı olmaq, mənəviyyatlı olmaq, Amalın varlığı deməkdir, əqidəli olmaq deməkdir. Atalı olmaq aşiq olmaq deməkdir. Ləyaqətinə, vicdanına aşiq olmaq. Atalı olmaq Məcnun olmaq deməkdir. Atalı soyadını daşımaq umacaqsızlıq, cəfakeşlik deməkdir. İnamçı olmaq, doğruçu olmaq, qutsallığa səcdə qılmaq deməkdir. Atalı olmaq – Atanın peyğəmbərliyini dərk eləmək, ona inanmaq deməkdir. Atalı dünyanın mənasına, Həyatın mənasına inanmaq deməkdir və dünyanı bu mənayla, bu İnamla dəyişməyə inanmaq deməkdir. Dünyanın Əzəliliyinə, Əbədiliyinə inanmaq deməkdir, bəşə-

rin nicatını Atalılıqla ölçmək deməkdir. Atalı olmaq millət olmaq, bəşər olmaq, vətənli olmaq və nəhayət, insan olmaq deməkdir...

***xxx***

Mən özümlə ardıcıl döyüşürəm ki, ali, qutsal duyğularıma sahib olum; Heyrət, Heyranlıq, Aşiqlik kimi qutsal duyğulara yetim. İnsana, Dünyaya, Həyata ruhumun gözüylə baxa bilim. Mən içimə vardıqca insan mənim gözümdə insanilәşir, Dünya Dünyalaşır, Həyat – alilәşir, qutsallaşır, Mənaya bənzəyir.

Bu zaman mən insanı nə üçün sevdiyimi dərk edirəm. Amala aşiq olmağımın mənasını anlayıram. Bütün boşluqları doldururam. Hər şeyi öz rəngində, öz ahəngində görürəm. Şərin mənim üzərimdə nüfuz dairəsi daralır. Şərə məndən qullanmaq olanağı yaratmıram, aldanmıram ona, özgələşmirəm, özümə yad olmuram.

"Maddi dünyada yaşaya-yaşaya mənəvi yaşamaq olar" deyir Asif Ata. Dünya mənəviyyatsızlıqda boğulsa da, sən mənəvi yaşaya bilərsən, yaşamalısan. Bu, mümkündür deyir Ata. Çünki mənəviyyatsız cəmiyyəti insan özü yaratdığı kimi, insan da düzəltməlidir. Bunun üçün insan öncə özü düzəlməlidir, kamilləşməlidir, sonra kamil insan kamil cəmiyyət qura bilər, qurmalıdır.

***xxx***

Hər ay mən ənənəvi olaraq Ailə Günü'ndə Amallaşma-Kamilləşmə-Xalqlaşma hesabatı verirəm. Hərdən yaxşı alınır, hərdən alınmır. Ancaq mən bu gün başqa cür yanaşıram hesabatıma. Bu ayda mən hansı duyğularla yaşamışam. Biz deyirik ki, Ocaq – həyat, həyat – Ocaq. Həyat adidir, Ocaq alidir. Həyat dərk olunandır, Ocaq həyatı dərk edəndir.

Həyat bizə güc göstərir, zor eləyir. Biz bu zorun qarşısında necə davam gətirməliyik? Mən 7 ildir Ocağın, demək olar ki, bütün tədbirlərində iştirak eləmişəm. Nə verib Ocaq mənə, mən Ocaqdan nə almışam? Nəyimə gərəkdir bu aldığım? Bax, onu izhar eləmək istəyirəm. Yəni mən kim idim və kim olmuşam? Biz həmişə bu qonunu qoyuruq, mən özüm indi gəlib ora çıxıram. Həyat bizi

istədik-istəmədik vurur. Biz Ocaqçı olmaq üçün hər gün sınaqdan keçirik. İşdə də sınaqdan keçirik, ailədə də qohumların sınağından keçirik, öz aramızda da bir-birimizin sınağından keçirik. Son dövrlər də biz sınaqdan keçdik. Bu bizə sübut elətdirdi ki, nə dərəcədə Ocaqçı ola bilmişik, nə dərəcədə Atanın dediklərini içimizə ala bilmişik. Bizi özümüzə inandırdı. İnandıra bildi ki, biz kim idik, və kim ola bilmişik hal-hazırda. Biz bütün mənamızla, içimizlə yiyələnmişik Ocağın halına, məramına.

İndi mən özümdən danışmaq istəyirəm. Mən burda bir cümlə yazmışam ki, biz qırılmadıq. Bu o deməkdir ki, bizim inamımız qətidir, mütləqdir. İdrakımız güclüdür, Mənəviyyatımız ucadır, iradəmiz sarsılmazdır. Bu bizim üstünlüyümüzdən soraq verir. Bənzərsizliyimizdən soraq verir. Bax, bunlar şüar kimi səslənə bilər. Ancaq bu gözəl sözlərin içində biz varıq ey. Elə söz xatirinə deyiləsi sözlər deyil. Məsələn, mən deyirəm bunları, qıraqdan qulaq asan deyər ki, əşi, bu sözləri min dəfə deyibsiniz, eşitmişik. Ancaq mən hiss eləyirəm ki, biz bunda varıq. Mən niyə belə qətiliklə danışıram?! Çünki adam ağır hadisədə özünü tanıya bilir. Məsələn, bəlli məsələdə biz özümüzü tanıya bildik. Mən Soyluya inandım. Bu inam bizi birləşdirdi. Bizi əyilməyə qoymadı. Çünki Ocaq ciddi məsələdir. Onu dərk eləməyən, eybəcər rəqabət üstə özünü təsdiq etməyə çalışır. Ömrü bada verir, elə bilir yaşayır. Ocaq ömür deməkdir. Ocaq mənim 7 ilim, Nurtəkin üçün onun 16 ili, Göylü üçün onun 14 ili, Türkel üçün 12 ili, yəni hamının illəri var. Bu illər boşa getməyib. Ocaq dolub bu illərin içinə. Ocaq bizim ötəri halımız deyil, daimi halımızdır, içimizin halıdır. Mən yenə deyirəm, niyə mən bu inamla danışıram?! Çünki bunu artıq mən həll eləmişəm içimdə. Bir var nəzəri danışasan, bir də var ki, sən həyatın o basqısını öz üzərində görəsən. Həyat deyilən bir şey bütün ağırlığıyla, bütün şəriylə, bütün ədalətsizliyiylə, bütün hər şeyiylə üstümə cumub. Ancaq mən ayaqdayam. Mən başa düşürəm ki, Ocaq olmasaydı, mən qırılacaqdım, mən sınacaqdım, mən öləcəkdim, mən itib-batacaqdım. Mən bunu başa düşürəm. Yaşamağa, bunu ayırd eləməyə, başa düşməyə, dərk eləməyə ki, bu nədir, mənə ancaq Ocaqçılığım bu gücü verib. Xırda

bir şeyə də, məsələn, biz çox rahatsız olduq maşında ki, gül tapa bilmədik, Göylü hirslənəcək. Deyirəm, axı gül böyük bir məsələ deyil. Niyə bu dərəcədə xırda bir şeyin üstündə… Axı Ocaq söhbəti var. Burda böyük söhbətlər var. Ocağı halımızda yaşatmaq qüdrətimiz var. Bu qüdrətlə biz həyata yox deyirik. Həyatı üstələyə bilirik. Həyatdan üstün ola bilirik. Bizi yaşadan budur.

Mən təkrar eləyirəm. Ocaq halım olmasaydı, Amalım olmasaydı, Ata olmasaydı, mən həyatın ağırlığı altında itib-batardım, yox olardım. Mən isə yaşadığımı anlayıram. Direniş göstərdiyimi bilirəm. Bu o deməkdir ki, Ocaq bizim həyatımıza ağır yük kimi gəlməyib. Ocaq həyatıma məni ağır yükdən özgür etmək üçün girib. Mən bunu dərk elədiyimə görə deyirəm. Biz həmişə deyirik ki, ağırdır. Yox ey, ağır deyil, Ocaq səni o ağır yükdən çıxardır. Ocaqdan qaçanlara mənim yazığım gəlir. Onlar həyatın çirkabında itib-batacaqlarını anlamadan qaçırlar. Mən bu qənaətə gəlirəm ki, Ocaqdan möhkəm yapışmaq gərəkdir, diri-diri ölməmək üçün, murdarlanmamaq üçün. Mənəviyyatsızlaşmamaq üçün. Özgür yaşamaq üçün, sevmək üçün, sevilmək üçün, ailə olmaq üçün, həyatdan üstün olmaq üçün, gözəlliklər aşiqi olmaq üçün Atadan, Ocaqdan möhkəm yapışmaq gərəkdir. İnamlı, İdraklı, Mənəviyyatlı, İradəli, yəni ruhlu yaşamaq naminə Atanın, Ocağın, Mütləqə İnamın aşiqi olmaq gərəkdir…

Həyat hər kəsə zərbə vurur – Haqsızlığı, Vicdansızlığı, Əxlaqsızlığı, Mənəviyyatsızlığı qoruyan zərbə. İnsan bu zərbələrdən özünü necə qorumalıdır, – Ədalətsizliyə qarşı səbr, dözüm, təmkinlilik göstərməli, yoxsa ədalət uğrunda mübarizəyə qalxmalıdır?

Ağıl deyir ki, ədalətsizlik şəri çox güclüdür, onunla mübarizə etmək olmaz, əbəsdir. O, səni mütləq məğlub edəcək. Sənin mübarizən ən yaxşı halda, Şərə qarşı əgərəksiz çabalar olacaq…

Ədalətsizliyə qarşı insanda özünüqoruma hissləri mövcuddur. Bu özünüqoruma instinktlərlə həyata keçir. Ona görə də özünüqoruma ədalətə şübhə halı yaradır, yəni ədalətsizliklə barışma əhvalı yaranır… Mən özünüqorumanı qəbul etmirəm, çünki ədalətə şübhə etmək istəmirəm, çünki nisbi ədaləti qəbul etmirəm. Mən hiss edirdim ki, Şər üstümə gəldikcə Ədalətə inamım daha da artır, müt-

ləqləşirdi hətta. Mütləqləşmə yol kimi qarşımda açılırdı. Məni bu yol sonsuz əzablara düçar elədi, bu yol məni adi mövcudluqdan çıxarıb adi həyatdan imtinaya aparır, özündənkeçmə tələbi qoyurdu qarşımda. Bu yolda mən ədalətsizliklə birbaşa döyüşmürdüm, özümlə döyüşürdüm. Şər üstümə yeni hal ilə gəldikcə, mən də yeni cəsarətlə özümlə döyüşürdüm. Düşünürdüm ki, ədalətə inam hissimi əlimdən verməyim. Hiss edirdim ki, fiziki cəhətdən məhv oluram, yox oluram. Ancaq Yoldan geri çəkilmirdim. Mən bu əzablı anları yaşadım, indi də yaşamaqda davam edirəm. Ədalətə inamım bütövləşmə aşamasına qalxır. Mütləq Ədalətə inamım məni təslimçi kimi yox, Mütləqçi kimi üstün edir, fərəhli hal yaşadır.

***xxx***

Ziyarət eləmək səcdə əhvalından, səcdə ehtiyacından gəlir. Biz Mütləqə səcdə edirik. Atanın evinə ziyarətdən hal başlayıb, ömrümüzdə axtardığımız Mütləqdi, Mütləqə inamımızdı və biz bunu ziyarət edirik. Ziyarət həm də Atanı öz içində axtarmaqdır. Mütləqi öz içində axtarmaqdı, Özünü ziyarət etməkdi. Mütləq bizə daha yaxındır, çünki biz onu aşkarlamışıq. Mən öz içimi açanda orada, doğrudan da, gözəlliklər tapıram. Mütləq axtarışında gözəlliklər tapmamaq olmaz. Mən gedirəm Nurtəkinin içinə. Nə qədər gözəlliklər tapıram. Eləcə də Göylünün içinə girirəm və tapıram.

Mən belə təsəvvür edirəm, pis cəhətlər hamısı üzdədir, gözəl cəhətlər isə dərindədir. Hər gözəl cəhətin bir qapısı var. Bu qapıların açarı insanın öz əlindədir. Mən ancaq yaxınlaşa bilərəm. Mən görürəm ki, Göylünün qapısı açılıb, ora girmək və onu tanımaq gərəkdir.

Ziyarət etmək qutsal bir məsələdir. Mən hələ demirəm ki, Günevin içinə üz tutanda nələr hiss edirəm. Mənim üçün göy sanki genişlənir, onun ruhani halı məni də o hala gətirir. Soylunun içinə girməkdən isə danışmıram, gərək çox güclü olasan ki, onun dünyasında uçmağa qanadın ola.

Atanı fiziki görməmək inamıma təsir etmir, mən onu görmüş kimi hiss edirəm özümü. Soylu hardasa mənim üçün Atanın yoxluğunu

doldura bilib... Mən Ocağa qədər müxtəlif yönlü fəaliyyətlərdə olmuşam. Ancaq Ata həqiqəti ilə ilk dəfə görüşəndən sonra fitrətən Ocaqla bağlılığımı hiss eləmişəm. Çox böyük axtarış yolu keçdim, aktiv olmasa da. İçəridə axtarış, özünü tapmaq, həyatı anlamaq. Bilirdim ki, alınmır. Atanı tapandan sonra yolu görə bildim. Hansı sürətlə getməyimdən asılı olmayaraq, bu yoldayam. Mən Ocağa bağlıyam, Ocaqla ayaqda dururam, Ocaqla nəfəs alıram.

***xxx***

Hər bir Ailəçi Amallaşma, Kamilləşmə, Xalqlaşma hesabatı verməlidir. Bunlar yoxdursa, ay ərzindəki halını, duyğularını deməlidir. Bu ay mənim üçün ağır keçdi. Həyat məni ağır yükləmiş, sərt desək, imtahana çəkir. Məni Ocaq düşüncələrindən ayırır. Ocaq düşüncələrindən ayrıldıqca adam, təbii ki, zəifləyir, həyatın onun üzərində qoyduğu yükə də çətinliklə dözür. Bu ay yaşadığım, daha doğrusu, məcbur olduğum həyat qayğıları aşırı səviyyəyə çatdı. Mənim bütün fiziki gücümü verdiyim bir məsələ axıra çatdı, bütün əziyyətim, elə bil ki, boşa çıxdı. Mənə doğma olan bacım həyatdan getdi. Bu boşluğu özümdə çox hiss edirəm. Bilirəm ki, bu boşluğu ancaq Ocaq qayğılarıyla, əməlləriylə doldura bilərəm. Hələlik bu, alınmır. Mənim varlığımı təsdiq edən qaynaq ancaq Ocaqdır. Umud eləmək ki, vaxt keçəcək, bu boşluq dolacaq, bu olmayacaq. Ocaq əməlinin arxasınca fərəh gəlir, güc gəlir. Həm fiziki güc, həm mənəvi güc gəlir.

Çox maraqlı müşahidə elədim bacımla bağlı. İnsan öz düşüncəsiylə nə qədər güclü olur. Onun düşüncəsi, özünü yönəltməsi, mən deyərdim, hüdudsuzdur. Həm müsbət mənada, həm mənfi mənada. Həyata münasibəti, həyatla mübarizəsi çox önəmlidir. Mənim bacımda bu, mənfi tərəfə yönəlmişdi, özünə hökm vermişdi ki, mən gedirəm, yaşamaq gücüm yoxdur. O, tərsinə də qərar verə bilərdi ki, mən yaşayıram, yaşamalıyam, bunun üçün də mübarizə aparmalıyam. Bunun üçün də çabalar ortalığa çıxmalıydı. Demək istədiyim odur ki, insan idrakı çox hüdudsuzdur. İnsan özünü hansı səmtə yönəldirsə, idrakını hansı yola qoyursa, o yolda o, yaşayır, o yolda o,

var olur. Soylu Atalının sözünü qeyd eləmək istəyirəm ki, həyatda belə, var olmaq üçün özünü ötmək tələbinə yetməliyik. Özünü ötmək sözdə asan gəlsə də, çox çətin bir əməldir. Mənim duyğularım elə bil ağırlaşıb. Fiziki gücüm azalıb. Mən bilirəm ki, ondan çıxmaq üçün özümü ötməliyəm. Varlığımı təsdiq eləmək üçün özümü ötməliyəm. Özümü ötmək üçün isə əməl ortaya qoymalıyam. Özümə qayıtmalıyam. Umud edirəm ki, bunu bacaracağam və Ocaqla bağlı əməllərə sahib olacağam. Atamız Var olsun!

***xxx***

Çoxdandır Ailə Günlərində, Ocaq tədbirlərində söz demirəm. Bu, mənim üçün çox acınacaqlı bir haldır. Bilirəm ki, söz deməyəndə hər dəfə bir addım geri düşürəm. Söz deməməyimin səbəbi odur ki, Ocaq haqqında az düşünürəm. Düşüncələrim başqa tərəfə yönəlib. Sözümün səviyyəsi də Ocağa layiq olmayanda utanıram.

Bugünkü qonular elə qoyulub ki, mənim hazırlığımın olub-olmamasından asılı deyil. Haqlı olaraq Ocaq Yükümlüsünə münasibətdən danışırıq. Müzakirə olunası qonudur.

Burda iki Soylu Atalı var – biri sıradan Ocaqçı, bir də Ocaq Yükümlüsü. Təbii ki, belə olmamalıdır. Onu kim eləyib, bilmirəm. Soylu Atalı özümü eləyib, ya biz eləmişik? Biz ondan hər şey tələb edirik, hər şey istəyirik. Özü də həmin işləri görür. Ocaq Yükümlüsü kimi onları eləməməliydi. Biz də ondan ummamalıydıq. Bunu ora apar, onu bura gətir... Mən ayırmaq istəmirəm, ancaq Yükümlünün öz yükü var. O, həm öz yükünü götürür, həm də başqalarının yükünü daşıyır. Təbii ki, bizdə də ona münasibət ikili olur. 4 il qabaq Ocaq Yükümlüsü haqqında yazı yazmışdım. Orda Yükümlü haqqında öz fikirlərimi söyləmişdim. 4 ildə mənim fikirlərim daha üstün olmalıydı. Üstündür də, sadəcə olaraq, bu gün onu ifadə eləmək, həm də yazıya köçürmək iqtidarında deyiləm. Məni rahatsız edən odur ki, Soylu Atalı Ocaq Yükümlüsünə aid olandan daha çox yük götürür. Məni bu rahatsız edir, ancaq mən heç bir şey edə bilmirəm. Bu mənim ona münasibətimdə mənfi cəhət deyil, tərsinə, daha çox

üstünlük tərəfi var. Hərtərəfli olması onun yüksəkliyidir, böyüklüyüdür, bütün yüklərin altına girmək cəsarətidir. O şey ki, mən eləməliyəm, onu Soylu Atalı edir. İçdən xəcalət çəkirəm. Soylu Atalıya hamımızın münasibəti yüksəkdir. Bu dediklərimi düzəldə bilsək, daha yaxşı olar.

Dünən Soylu Atalı mənə zəng vurdu, öz fikrini, istəyini mənə dedi. Mən yazı yazmalıyam, yəni mən yaşamım haqqında yazı yazmalıyam, iki ildir mən xəstə qulluğundayam, ali məqsəd yolunda olan insan necə yaşam tərzini dəyişir və bu yaşamla o yaşam tərzini nə bağlayır. Qorumaq və qulluq etmək. Sən nəyə ömrünü həsr eləmisən? Cismə həsr eləmisən, ölənə həsr eləmisən, sən üstün gəlməlisən. Sən qulluq eləməməlisən, qorumalısan, sənin qulluğun boş yerə gedir. Ən çətin məqamda da insan insan olaraq qala bilir. Yəni mənim iki illik həyat tərzim Ocaqdan qıraqdadır, formal iştirak edirəm Ocaq Evladı kimi. Ocaq Yükümlüsü mənə inanır və istəyir halımı düzəltsin. Yadıma bir məqam düşdü, Ocaqdan qopanların şərəfsizliyi ucbatından, Ocaqda yaşanan rahatsızlıq Göylünün umudunu sarsıtmışdı. Soylu onu o durumdan çıxardı, hünərini bərpa elədi. Göylünün Ocağa verdiyi ilə mənim Ocağa verdiyim arasında yerlə göy qədər fərq var. Mən həmişə demişəm ki, Ocaq üç nəfərin – Soylu, Nurtəkin və Göylünün çiynində olub. Göylünün Ocaqda sarsılması təbii ki, onun fiziki məhvi demək olar. Ocaq onun aqibətinə çevrilib. Ona görə Soylu ruhani hünəri ilə Göylüyə sahib çıxdı, umudunu itirməyə qoymadı. "Ocaqda qalxıb-enmələr çox olacaq, ancaq Ocaq varlığını qoruyub yaşayacaq" dedi. Bu gün biz bu sözün təsdiqini görürük. İndi Soylu Atalı çalışır ki, mən yenə halımı bərpa edə bilim, belə getsə, Ocaqsız mənim də həyatım məhv olar. Mən bu barədə düşünəcəm, hesabat da verəcəm. Umud edirəm ki, Soylu Atalı məndən əl çəkməyəcək. O, öz dediyinin üstündə durur, əməl sahibi olur və əməl sahibi edir adamı.

**Atamız Var olsun!**

## Soyluya övgü

Asif Ata deyir, mərasimdə Evlad Ata haqqında söz deməlidir. Ata bunun çətinliyini çox gözəl bilirdi. Eyni zamanda "Ata haqqında söz deməyi" vurğu edirdi. Ata haqqında söz demək Evladdan cəsarət, hünər tələb edirdi. Ata haqda söz demək, Evladın Mütləqə, Amala münasibəti demək idi. Ata haqda söz demək – Böyüklüyü, ucalığı ifadə etmək idi; Amalı, Böyük olanı ifadə etmək onu tanımaq anlamına gəlirdi.

Mən Atanın İstəyindəki mənanı anlayıram. Bu, qiymət verənin özünün böyüməsini göstərən nişandır.

"Mütləqə İnam" dünyanın ruhani xilası məsələsidir – İnsanlaşmaq yolu ilə. Böyüklük danılıb, böyüklər unudulub. Uydurulmuş kiçiklər dünyanı idarə eləyir.

Bütün bunları ona görə deyirəm ki, Atadan gələn bu üsulu davam edək (Ata haqda söz demək "Ata Günü" mərasimində həyata keçirilirdi). Mən indi "Yeni il" mərasimində Soylu Atalı haqqında bir neçə kəlmə söz demək istəyirəm. Çünki bu gün biz Soylu deyərək ayaqda qalmışıq. Biz Soylunun cazibəsi sayəsində Ataya – Ocağa bağlıyıq; biz Soylunun yanında olmaqla Mütləqə İnama gedən yola düşə bilmişik. Soylu bizə özünü sırımadı, Atanı verdi. Onun ləyaqəti illərnən gözümüzün qabağındadır. Qısqanclığın, paxıllığın hücumları onu dayandıra bilmir.

Onu da deyim ki, Soylu ilə yol getmək çox çətindir, Atayla olduğu kimi. Atanın sözlərini xatırlayaq: "Ocaqda bir nəfər qalsa belə, Ocaq yaşayacaq!" (O, bir nəfər deyəndə özünü nəzərdə tuturdu).

Atanın ölümündən sonrakı dönəm Ocağın Soylu dönəmidir. Atanın xəttini Soylu yaşadıb bu günə gətirdi. Ocağın tarixinə baxan hər kəs bunun izləyicisidir. Bu, bir həqiqətdir, Soylu olmasaydı, Ocaq dayanacaqdı. Ocaqdan gedənlərin arada-bərədə Ocaq təəssübçülüyü eləməsi gələcəkli münasibət deyil. Bu məsələdə ciddi dərinliklər var. Hər kəs bu məsələni ləyaqətlə təhlil edib nəticə çıxarmalıdır. Heç bir addım ictimai populizmə hesablana bilməz.

Mən özümün Soylu ilə bağlı irəliləyişimə aydınlıq gətirmək istəyirəm. Mənim üçün mənzərə belədir: Soylu, özünün dediyi kimi, Atanın "Mütləqə İnam Yolunun başlanğıcı"na gəlib çatıb. Başqa-

larının da bu yola çatmağına can atır, əl uzadır, kimləri isə hətta itələyir (Soylunun bir sözü var "dəhmərləmək").

Kimlərsə onun əlini tuta bilmədi, sözüm onlara deyil. Sözüm onun əlindən tutub, irəli getmək istəyənlərədir. Konkret olaraq mənim özümə.

Hətta istək, həvəs Soylu ilə yol getməyin çətinliyini azaltmır.

Çətinlik Soylunun güzəştsiz davranışından irəli gəlir (bu yerdə Soylu, elə bil, yaxşı anlamda Atanı təkrar edir). Bu, yolun tələbinə uyğun gedişlərin eynidir. Soylu da Ata kimi Ocaqçını sevir, sonsuz səbrlə yanaşır onun anlamsızlıqlarına. Ancaq uzun müddət Ocaqda olub yerində saymağı qəbul etmir.

Mənim Soylu ilə davranışlarımda çox mürəkkəb anlar yaşanıb. Həttə o dərəcəyə çatıb ki, mən Soyludan qaçırdım, görüş müddətini uzadır, ara verirdim görüşlərə, ancaq məni çağıran kimi yanına qaçaraq gəlirdim. Soylu isə fərqlidir. Soylu özünə sadiq, yoluna sadiq, münasibətdə uğurlu, ardıcıl şəxsiyyətdir. Münasibətə adi baxmır, fərdi böyütmə yolu tutur.

Soylu ilə yol getmək hər adamın işi deyil. Yol gemək çətin, ara saxlamaq ondan da ağırdır. Ara saxlamaq Yolundan geriyə qalmaqdır (xilas olaraq qəbul etdiyin, sadiq olacağına and içdiyin Yolundan). Sonda (obrazlı desək) geridə qaldığın məsafəni yüyürərək getməli olacağını anlayırsan. Əgər doğrudan da Amala bağlısansa.

Bir şey mənə səma kimi, günəş kimi aydındır: Bu gün (Atanın ölümündən sonra) Ocaq kimi böyük bir hadisəni Soylu yaşadır, Ocağın cazibəsini Soylu yaradır, mənim Soylu-Soylu deməyimdə qeyri-adi bir şey yoxdur. Soylu deməyim bəs kim deyim? Axı Mütləqə İnama gedən bir yol var. Onun da yiyəsi Soyludur. Başqa Yol (yolsuzluq) mənə gərək deyil. Başqa yol həqiqətsizlik yoludur.

Mən gücsüzəm, mən idraksızam, mən iradəsizəmsə, gec-tez Soyludan ayrı düşəcəyəm (düşənlərdən biri olacağam).

İki il bundan öncə mən ilk dəfə Soylu haqda söz deməli oldum. Mən deyə bilərəm, məsələn, minlərlə iş sadalaya bilərəm, Soylu bu işi gördü, o biri işi gördü. Ancaq Onun mənəvi, idraki qüdrəti bu deyilənlərdən çox yüksəkdədir. Soylunu görə bilmək gərəkdir. İndi

əminliklə deyə bilərəm ki, mən Onu xeyli dərəcədə görürəm! Soylunun özünü görməsi isə daha əsaslıdır. O, özünü aldatmır, o, özünü qurur.

Bu, mənim “Yeni il” mərasiminə hesabatımdır. Atanın ruhani hüzurunda fəxrlə deyəcəyim izharım kimi qəbul olunacağına əminəm. Mən Soylu haqda deyirəm: O, hər an, hər dəqiqə böyüyür, hər atdığı addımla sürətlə ucalır. Bu, aksiomdur. Bu məsələnin bir tərəfidir. İkinci tərəfi isə, bunu görməkdir. Bu, insanlaşmanın yerişidir.

**Atamız Var olsun!**

***xxx***

...İnsan – Amala bağlı fərddir, Amalla yaşayandır. İnsan olmaq – qutsal, Ruhani yaşamaq deməkdir. İnsansevər, vətənsevər, bəşərsevər deməkdir. Umacaqsız, vicdanlı, ləyaqətli yaşam deməkdir.

İnsanlıq – Həqiqətə, Mütləqə, ideala aşiqlik səviyyəsidir.

Böyüklüyə heyranlıq ucalığıdır – İnsanlıq.

Biz adamlarla sıx-sıx ünsiyyətdə oluruq. Mən, 65 yaşlı bir Ocaqçı, Nəsibə xanım 70 yaşlı bir İnamçı Ocaq sorağı çatdırırıq onlara. Mənə irad tuturlar, daha doğrusu, anlamırlar niyə bu yaşda insan Ocağa bağlanıb, Ocaqla nəfəs alır, Mütləqə İnam Dünya baxışına inanır. Bu Yolda umacaqsızlıq görəndə isə çaşbaş olurlar. Bu hal onları təəccübləndirir....

Ocaq Asif Atanın Mütləqə İnam Dünyabaxışını təmsil edir. Ocaqda Dünyanı dəyişmək istəyi – qüdrəti var. Dünyanın Mənəvi Fəthi var. Bu axtarışın yolu İnsanlaşmadan keçir. İnsaniliyə inamdan keçir. Dünyanı dəyişmək, dünyaya mənəviyyat gətirmək yolu – İnsaniliyin İnamda ifadəsi yoludur.

Tarixin gedişatı sübut etdi ki, iki dünya var! Birinci, ağaların, hökmdaların, siyasətçilərin yaratdığı dünya, daha doğrusu əyilmiş dünya. İkinci, Həyatın ahənginə, uyumuna, anlamına uyğun Dünya. Birinci Dünya – gerçək saydığımız dünya, İkinci dünya – daha ali, daha gözəl, ideal dünya. İnsanın yaratdığı Dünya.

Əsil dünyanın, Həqiqi dünyanın sakini olmaq üçün yenidən doğulmaq gərəkdir. Özüylə döyüşüb Kamil İnsan olmaq gərəkdir. Buna hər bir insanın olanağı var. “Yenidən doğulma yoxdursa, İnsan yoxdur”– deyir Asif Ata.

***xxx***

“Xalqsız bəşəriyyət ölü bəşəriyyətdir” (Asif Ata).

İnsan milliliyi ilə var olur. Milli müəyyənliyi ilə özünü tanıyır. İnsanın milliliyi ilə onu tanıyırlar. İnsan milliyyətsizliyi ilə ölür, milləti olmayanda özünə yadlaşır, məhv olur.

Bu düsturu dünyanı qarışdıran, əymək istəyən dünya ağaları çox yaxşı bilirlər. Həmin bu düsturdan şərin xeyrinə qullanırlar. Milli məsələ insanların iç hadisəsidir. Ona görə də bu məsələdə insanları hisslərə yönəltmək asan olur. Misalçün SSRİ-ni dağıtmaq məqamlarında biz bunu izlədik. Ona görə insan milli məsələlərdə öz dəyərləri ilə ciddi birikməlidir. Xəlqilik – mahiyyətdir, mənadır. Xəlqilik bütün hallarda ruhaniyyat hadisəsidir. Ruhaniyyatını yaratmayan toplumlar millət ola bilmirlər. Xəlqi Birlik yarada bilmirlər. Ölüb gedirlər. Nə qədər millətlər tarixdə yox olublar. Özünü millət kimi tanıyan hər bir xalq, bu gün var olan hər bir toplum millətçilik dövrünü keçiblər haçansa. Keçməyənlər keçməlidirlər.

***xxx***

Doğunun (Şərqin) dünəni olub. Fəlsəfə, ədəbiyyat, ruhaniyyat Doğudan yayılıb dünyaya. Doğunun bugünü yoxdur. Qurban verib özünü Batının texniki tərəqqisinə, unudub özünü iqtisadi inkişafda... Sabahı necə olacaq? Keçmişə qayıtmaq, itirdiyini, əldən verdiyini bərpa etmək bütün hallarda çətin olur. Ancaq mümkünsüz olmur. Nəyə görə mümkündür? Düzdür, artıq hər şey dəyişmiş kimi görünür. Həyat tərzi dəyişib, güzəran dəyişib, ortam, zaman dəyişib. Ancaq Ruh dəyişməz qalır. Ruh ölmür. Ruh insanı tərk etmir. İnsanın yaratdığı cəmiyyət insanı sıxdıqca dərin qatlara girir Ruh. İnsan öz ruhunu oradan qaldırıb, ona sahib olmayınca o, yox kimi görünür. İnam, İdrak, Mənəviyyat, İradə birliyindən yaranan Ruhun

ölməzliyi onun Əzəli, Əbədi, Sonsuz və Kamil olmasındadır... Doğunun sabahı üçün yeni ideya, yeni dünyabaxış gərəkdir. İdeya, söz – əmələ, hünərə çevrilir. İdeya iradə araçılığıyla həyata keçir. Biz Doğunun sabahını Ocağın qəbul olunmasında, yayılmasında görürük. Bu səbəbdən də biz Ocağı Amalımıza çevirmişik.

**Atamız Var olsun!**

# ATA-OCAQ GÜNSIRASI (TƏQVİM)

1 mart 1979-cu ildən başlanır.
Aylarda günlərin sayı miladda olduğu kimidir.

I ay **Günəş** – mart,
II ay **Çiçək** – aprel,
III ay **İşıq** – may,
IV ay **Şölə** – iyun,
V ay **Od** – iyul,
VI ay **Qürub** – avqust,
VII ay **Ata** – sentyabr,
VIII ay **Xəzan** – oktyabr,
IX ay **Yağış** – noyabr,
X ay **Sərt** – dekabr,
XI ay **Qar** – yanvar,
XII ay **Köçəri** – fevral.

## Həftənin günləri:

I gün **Arzu** – Bazar ertəsi,
II gün **Ümid** – Çərşənbə axşamı,
III gün **Dözüm** – Çərşənbə,
IV gün **Mərhəm** – Cümə axşamı,
V gün **Qismət** – Cümə,
IV gün **Murad** – Şənbə,
VII gün **İnam** – Bazar.

# Ocaq-Türk Abesi



## İçindəkilər

Illkinlik istəyi ilə yaşayan ürək (Ön söz) ................................3
Rica.........................................................................................6
Ruhani Bəlgə (Soylu Atalı ....................................................8
Asif Atanın 75 illiyi qarşısında...............................................9
Hünərin yönü.........................................................................11
Bəşərin dünəni, bugünü, sabahı...............................................13
Evladlığın Evladlarda İfadəsi və Təsdiqi ................................16
Babək – Azadlıq Peyğəmbəridir..............................................28
Dönə-dönə Atatürk.................................................................45
Türkçülük yadlığı yenməlidir..................................................50
İnam Evi – İnsanilik Ünvanı....................................................54
Özbaşınalığın təhlükəsi ...........................................................56
Olmalının təsdiqi.....................................................................58
İnamımızı öyrənənlər ..............................................................60
Yol Sevdalısı ...........................................................................63
Kədər üstə düşüncələr .............................................................64
Uğurlarımızın Fərəhi ...............................................................67
İnsanilik bayramımız qutlu olsun............................................69
Soyluya övgü...........................................................................79

# Ulusəs Atalı

***(Əsgəroğlu Nəzakət Cahangir qızı)***


# Sabahlı İnamım

***(Türk dilində)***


**Bağlantı ünvanı: www.asifataocagi.com**

**soyluatali@mail.ru**

**Tel: (050) 503-60-88**

**(051) 585-56-97**

**«Елм вя Тящсил» няшриййатынын директору:**
**профессор Надир МЯММЯДЛИ**

**Компцтер дизайнери: Zahid Məmmədov**
**Техники редактор: Rövşanə Nizamiqizi**

Чапа имзаланмыш **26.03.2015**
Шярти чап вяряги **5,5.** Сифариш **№ 142**
Каьыз форматы **60x84 1/16.** Тираж **400**

Китаб **«Елм вя Тящсил»** няшриййат-полиграфийа
мцяссисясиндя сящифяляниб чап олунмушдур.
**E-mail:** elm_ve_tehsil@box.az
Тел: 497-16-32; 050-311-41-89
Цнван: Бакы, Ичяришящяр, 3-ъц Магомайев дюнэяси 8/4.